RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 25 (9192) 4 FEVRAL 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

İlham Əliyevin enerji komandası

Azərbaycan yeni qlobal enerji təhlükəsizliyi xəritəsinin müəllifinə çevrilir

Fevralın 3-də Bakıda, "Gülüstan" sarayında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Prezident Yohannis.

Hörmətli komissar Simson.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əvvəlcə mən Rumıniya Prezidentini salamlamaq istəyirəm. O, Azərbaycana rəsmi səfərə gəlib və bugünkü mühüm tədbirdə iştirakına görə təşəkkürümü bildirirəm. Bu bir daha onu göstərir ki, Rumıniya enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetirir və bizim gələcək ümumi addımlar strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələndirmə nəticəsində atılacaqdır.

Mən xüsusi olaraq xanım komissar Simsona təşəkkürümü bildirmək istəyirəm ki, o, bizim bütün təşəbbüslərimizə davamlı dəstək verib və "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantısının çox fəal həmsədri olub və bu mühüm layihənin uğurlu icrasına töhfə verib.

Biz bu gün artıq doqquzuncu dəfədir ki, toplaşırıq və əlbəttə, bir çox məsələlər haqqında danışmalıyıq, adətən, etdiyimiz kimi, görülən işləri nəzərdən keçirməliyik və ən vacibi, gələcək addımlarımızı planlaşdırmalıyıq.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının səkkizinci toplantısından sonra dünyada çox şey dəyişibdir. O toplantı bir il öncə burada keçirilmişdi. Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən, görüşlərdə söylədiyimiz kimi, enerji təhlükəsizliyi, həqiqətən, milli təhlükəsizlik məsələsidir. Yeni marşrutların qurulması və yeni mənbələrin cəlb olunmasına gəldikdə, bütün bunlar birgə səylərimizlə edilmişdir və indi görünür, bu, heç vaxt görünmədiyi kimi vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında etdik, vaxt itirmədik. Baxmayaraq ki, "Cənub qaz dəhlizi" layihəsinin icrasında müəyyən yubanmalar oldu, lakin biz onu mümkün qədər tez başa çatdırmağa çox sadiq idik. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq.

"Cənub qaz dəhlizi" iki ildən bir az çox vaxt əvvəl açıldı. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq.

2

Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınmasında iştirak etmiş şəxslərin təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

2023-cü il yanvarın 27-də Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə qarşı törədilmiş terror aktının qarşısının alınması zamanı həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borcu yerinə yetirərkən mərd və qətiyyətli hərəkətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

1-ci dərəcəli "Rəşadət" ordeni ilə

Tağıyev Vasif Natiq oğlu

"Vətən uğrunda" medalı ilə

Əsgərov Orxan Rizvan oğlu (ölümündən sonra)

İmanov Mahir Kamil oğlu.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2023-cü il

Avropa rəsmən Azərbaycanı enerji təhlükəsizliyinin əsas təminatçılarından biri elan etdi

Dünən Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası bir daha onu göstərdi ki, Avropa Azərbaycanı öz enerji təhlükəsizliyinin əsas təminatçılarından biri olaraq qəbul edir.

Ən əsası Avropa etiraf edir ki, "Cənub qaz dəhlizi"nin reallaşması və hazırda "yaşıl enerji" sahəsində əməkdaşlıqla bağlı atılan addımlar Prezident İlham Əliyevin müdrikliyinin, uzaqgörənliyinin, qətiyyətinin, enerji layihələrində iştirak edənləri vahid komanda şəklində birləşdirməsinin və qarşıya qoyulan vəzifələri düzgün koordinasiya etməsinin nəticəsidir.

İki ildən artıqdır ki, Azərbaycanın təbii qazını Avropa bazarlarına çatdıran "Cənub qaz dəhlizi"nin ərsəyə gətirilməsi ilk gündən Prezident İlham Əliyevin siyasi qətiyyətinə söykəndi. Azərbaycan Prezidenti Avropa İttifaqını, ayrı-ayrı dövlətləri, beynəlxalq maliyyə qurumlarını bu möhtəşəm layihənin ətrafında sıx səfərbər etdi, birləşdirdi. Bəzilərinə illər öncə bu layihənin reallaşması qeyri-mümkün görünürdü. Lakin İlham Əliyevin müdrikliyi və iradəsi, layihənin iştirakçılarını vahid amal ətrafında düzgün səfərbər etməsi "Cənub qaz dəhlizi"nin bütün seqmentlərinin vaxtında reallaşdırılmasını və bütövlüklə layihənin müvəffəqiyyətlə həyata vəsiqə almasını təmin etdi. Beləliklə, 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi" Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan enerji infrastrukturudur.

Bu gün dərin enerji böhranı ilə üzləşmiş Avropa, əvvəldə qeyd etdiyimiz kimi, öz enerji təhlükəsizliyinin təmin olunmasında Prezident İlham Əliyevin təşəbbüslərini yüksək qiymətləndirir. 2022-ci ildə görünməmiş enerji çağırışları ilə üzləşdiklərini deyən Rumıniya Prezidenti Klaus Yohannisin "Avropa bazarına Xəzər qazının çatdırılması barədə Azərbaycan adından Prezident Əliyev tərəfindən şəxsən verilmiş təminatlar bazarlar üçün ən çətin anda çoxdan tələb olunan sabitlik və proqnozlaşdırmanı təmin edə bildi" deməsi həm də onu göstərir ki, Avropa öz enerji təhlükəsizliyinin təmin olunmasında Prezident İlham Əliyevin rolunu etiraf edir.

Onu da qeyd edək ki, 2021-ci ildən başlayaraq "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin Məşvərət Şurasının gündəliyi dəyişib. Belə ki, o vaxta qədər əsas müzakirə olunan məsələlər "Cənub qaz dəhlizi"nin seqmentlərinin inşası ətrafında olurdusa, artıq müzakirələr əsas etibarilə təbii qaz təchizatının artırılması və enerji dəhlizlərinin şaxələndirilməsi ətrafında aparılır. Dünən Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında Prezident İlham Əliyev "Cənub qaz dəhlizi" barədə danışarkən bildirdi ki, bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi haqqında danışırıq. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycanın təbii qaz ixracı 2021-ci ildə təxminən 19 milyard, ötən il 22,6 milyard kubmetr olub. Bu il isə 24,5 milyard kubmetr olması gözlənilir.

6

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətləri fəal çalışırlar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən İtaliya Respublikasının ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratini qəbul edib.

4

Avropa İttifaqı gərgin zamanda Azərbaycanın dəstəyini və yardımını yüksək qiymətləndirir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak edən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

4

Azərbaycan yeni qlobal enerji

Prezident İlham Əliyevin çıxışı

Əvvəli 1-ci səh.

Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq. Ona görə əvvəlki illərdə birgə səylərimizlə görülmüş bütün işlər bu gün bizim səlahiyyətimizdədir və bizim heyətimiz daha da böyüyür, bu gün bu zalda daha çox bayraqlarımız və hörmətli qonaqlarımız var.

Ötən il bir neçə vacib hadisə oldu. Bu da bizim enerji təhlükəsizliyi sahəsində ümumi öhdəliyimizi nümayiş etdirir. Əvvəlcə mən mühüm bir sənədi qeyd etmək istərdim. O sənəd ötən ilin iyulunda Bakıda Avropa Komissiyasının rəhbəri xanım Ursula Fon der Lyayen və mənim tərəfimdən imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Memorandumdur və o, əslində, gələcək planlarımız üçün aydın yol xəritəsidir. Avropaya qaz ixracımızı 2027-ci ilə qədər iki dəfə artırmağı planlaşdırırıq və bu, mümkündür, çünki bizim resurslarımız var. Bizim qarşılıqlı siyasi iradəmiz və çox yüksək səviyyədə etimadımız mövcuddur. "Cənub qaz dəhlizi" layihəsinin uğurla həyata keçirilməsinin mühüm amillərindən biri, təbii ki, həll olunmalı texniki və bəzən siyasi məsələlərdən başqa, yüksək səviyyədə qarşılıqlı etimaddır və mən bunu qarşılıqlı həmrəylik adlandırardım. Məhz bu halda əgər kiminsə nəyə isə ehtiyacı olanda biz dərhal dəstək verməyə çalışırıq. Hesab edirəm ki, bu, gələcək işlərdə bizi istiqamətləndirəcək tərəfdaşlığın yaxşı ruhudur. Xüsusən indi, "Cənub qaz dəhlizi"nin Məşvərət Şurası çərçivəsində, biz ilk olaraq "Yaşıl Enerji" Məşvərət Şurasını keçirəcəyik.

Digər mühüm bir hadisə isə Yunanıstanla Bolqarıstan arasında interkonnektorun açılması idi. Bu, "Cənub qaz dəhlizi" layihəsi və müəyyən dərəcədə onun şaxələndirilməsi sayəsində oldu və nəticədə bizim üçün təbii qazımızın artıq Bolqarıstana təchizini başlamaq imkanını yaratdı. Həmçinin biz bu genişləndirmə və interkonnektorlar vasitəsilə qonşu ölkələrə də dəhlizin genişləndirilməsini nəzərdə tuturuq.

Təbii ki, dekabr ayı enerji təhlükəsizliyi üçün çox vacib idi, çünki iki mühüm hadisə baş tutdu. Birincisi, biz - Azərbaycan və Rumıniya qaz təchizatı haqqında saziş imzaladıq və qaz təchizatı bu yaxınlarda başlayacaq. Beləliklə, Rumıniya həmin "Cənub qaz dəhlizi"ndə iştirak edən ölkələr heyətinə qoşulur və biz həmçinin "Yaşıl Enerji"nin İstehsalı və Nəqli sahəsində Sazişi Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında imzaladıq. Bu, səylərimiz üçün əlavə əməkdaşlıq imkanını yaradacaq enerji təhlükəsizliyində bir növ yeni səhifə açacaq. Bir sözlə, bunlar vacib hadisələr idi.

Əgər bu il haqqında danışsaq, yanvar ayında biz Azərbaycan ilə Macarıstan arasında qaz təchizatı sahəsində anlaşma memorandumunu imzaladıq və beləliklə, heyətimizə üzv olan ölkələrin sayı artır. Bütün bunlar ilk növbədə cəlb edilmiş ölkələrlə sıx siyasi münasibətlər, fəal əlaqələndirmə və Avropa Komissiyası ilə Azərbaycanın bu təşəbbüslərə səmərəli rəhbərliyi sayəsində mümkün olmuşdur. Bu həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında başlamış və rəsmi çərçivəyə salınmış enerji dialoqunu da nümayiş etdirdi. Həmin dialoq təbii qazı, elektrik enerjisini, hidrogeni və yaşıl hidrogeni əhatə edir. Hesab edirəm bu, əməkdaşlığımızın çox nadir və səmərəli formatıdır.

Avropaya qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə imzalanmış anlaşma memorandumundan dərhal sonra Azərbaycandan daha çox qazın təchiz edilməsi məqsədilə əlavə imkanların yaradılması üçün fəal şəkildə işləməyə başladıq. Hazırda yeni yataqlardan bu il gözlədiyimiz hasilata, eləcə də mövcud "Şahdəniz" yatağında hasilatın artırılmasına əlavə olaraq, - bu, birmənalı olaraq baş tutur, - biz həmçinin ölkə daxilində enerji səmərəliliyi üzərində işləyirik. Biz itkilərin azaldılması proqramı, o cümlədən elektrik enerjisinin və təbii qazın kombinasiyası əsasında daxili istehlak proqramı üzərində çalışırıq. Beləliklə, Azərbaycanda elektrik enerjisinin istehsalında istifadə olunan təbii qaza ixrac məqsədilə daha çox qənaət etmiş olarıq.

Təbii qaz ixracı artır - 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu o deməkdir ki, Avropa Komissiyası ilə anlaşma memorandumu uğurla icra olunur. Biz nəinki hasilatı, o cümlədən ixracı artırırıq və həmçinin onun coğrafiyasını genişləndiririk. Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin digər bağlantılar və potensial interkonnektorlar vasitəsilə biz Avropada daha çox ölkələri bu layihəyə qoşa biləcəyik.

Təbii qaz resurslarına gəldikdə, mən artıq dəfələrlə bildirmişəm ki, təbii qaz ehtiyatları bizə və tərəfdaşlarımıza ən azı 100 il üçün bəs edəcək. Əlbəttə ki, biz gələcəyə doğru baxırıq və bu gün "yaşıl enerji" ilə bağlı məşvərət şurasının ilk iclası da olacaq. Heyət nisbətən kiçikdir - cəmi 4 ölkə var.

Bu gün komandamızda yalnız dörd iştirakçı ölkə olsa da, bu sayın artma potensialı var, çünki biz düşünürük ki, yalnız hökumətlər deyil, şirkətlər də bu mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər. Məşvərət şurasının ilk iclasında, sözsüz ki, konseptual məsələlər həllini tapmalıdır: öz fəaliyyətimizi necə quracağıq, hər iştirakçı ölkənin məsuliyyəti nədən ibarət olacaq, özəl şirkətlər necə cəlb olunacaq, - bu, şirkətlərdən ibarət konsorsiummu olacaq, yoxsa hər bir iştirakçı dövlət öz suveren ərazisində üzərinə düşən işi özü yerinə yetirəcək? Bütün bu məsələləri müzakirə etmək və razılaşdırmaq tələb olunur. Çünki məsələ yalnız Azərbaycandakı quru və dəniz yataqlarında bərpaolunan enerjinin istehsalı, yaxud Gürcüstanla sərhədimizə qədər yeni ötürücü elektrik xəttinin çəkilməsi ilə deyil, habelə Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi ilə bağlıdır.

Buna görə də biz planlarımızı düzgün qurmalı və kimlərin potensial investor ola biləcəyini bilməliyik. Əlbəttə ki, biz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığımızı davam etdirəcəyimizə ümid edirik. Fürsətdən istifadə edərək tərəfdaşlarımız olan ölkələrin hökumətlərinə minnətdarlığımı bildirmək istərdim. Bu ölkələr Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya və yeni tərəfdaşlarımız olan Rumıniya, Moldova və Macarıstandır.

Davamlı dəstəyinə və əla rəhbərliyinə görə Avropa Komissiyasına xüsusi təşəkkürümü bildirirəm. Həmçinin ABŞ və Böyük Britaniya hökumətlərinə dərin təşəkkürümü bildirmək istərdim. Çünki onlar təşəbbüsümüzü davamlı dəstəkləmiş, eləcə də investisiya və maliyyə imkanları da daxil olmaqla geniş əməkdaşlıq üçün güclü bünövrə təmin etmişlər.

Bu prosesdə iştirak edən şirkətlər, xüsusilə SOCAR və bp bir-birilə strateji əlaqələr qurmuş iki aparıcı şirkətdir. Bu əlaqələr ən azı 30 il də davam edəcəkdir. Bu gün aramızda nümayəndələrinin iştirak etdiyi aparıcı maliyyə qurumları da vardır. Bunlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Beynəlxalq Maliyyə Korporasiyasıdır. Yəni bütün aparıcı maliyyə qurumları bizimlədir. Biz ümidvarıq ki, səmərəli əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik.

Bu gün biz Azərbaycanda "Masdar" və "ACWA Power" kimi investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı iki sərmayə layihəsini həyata keçiririk. Bu layihələrin ümumi həcmi 470 meqavatdır. Həmçinin bu yaxınlarda bp şirkəti ilə birlikdə bir layihənin icrasına başlayacağıq. Bu, işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində inşa ediləcək 240 meqavatlıq elektrik stansiyası olacaqdır. Yəni cəmi 710 meqavat. Hər şey plan üzrə gedərsə, təxminən bir il və ya il yarım ərzində biz bu həcmdə bərpaolunan enerji istehsal edəcəyik. Bu isə yüz milyonlarla kubmetr qaza ixrac məqsədləri üçün qənaət etməyə imkan verəcəkdir.

Bərpaolunan enerji ilə bağlı planlarımıza gəldikdə, artıq qeyd etdiklərimə əlavə olaraq deyə bilərəm ki, hələ ki üç əsas enerji şirkəti ilə aramızda razılaşdırılmış və imzalanmış anlaşma memorandumu var. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcəkdir. Bu həcmin 10 qiqavatı "Masdar" şirkəti, 12 qiqavatı "Fortescue" şirkəti tərəfindən istehsal olunacaqdır. "ACWA Power" şirkəti isə bugünkü mərasimdə imzalanmış və hazırda icra olunan razılaşmaya əlavə olaraq 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürəcəkdir. Bu, həqiqətən də, çox böyük potensialdır.

Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelinə gəldikdə isə iş planımızı mərhələli şəkildə və Avropanın şərtləri ilə əlaqəli şəkildə qurmaq tələb olunur. Bu həmçinin Avropa qitəsində potensial əməkdaşlıq imkanlarımızı daha geniş miqyasda müəyyən etmək üçün lazımdır. Əminəm ki, Rumıniya və Macarıstan "yaşıl enerji"ni qəbul edəcək son məntəqələr olmayacaqdır.

Azərbaycan həmçinin çox böyük "yaşıl enerji" potensialına malikdir. Bu artıq təsdiq olunmuş faktdır. Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik. Hazırda 500 meqavatlıq günəş-elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır. Düşünürəm ki, bu potensial daha artıq olacaqdır. Yəni hazırda əlimizdə olan imkanlar bunlardan ibarətdir.

Qazın paylanması ilə əlaqədar yaxşı uğurlarımız var. Biz "yaşıl enerji" ilə bağlı saziş imzalamışıq. Biz, həmçinin təbii qaz və bərpaolunan enerji imkanları arasında səmərəliliyin artırılmasına əsaslanan qarşılıqlı əlaqə yaratmalı və bunu vahid paket çərçivəsində etməliyik. Bizim güclü siyasi iradəmiz və əlbəttə ki, fəaliyyətimizin uğurlu tarixçəsi var. Bizim müxtəlif formatlarda və müxtəlif ölkələrlə birgə həyata keçirdiyimiz bütün layihələr - istər Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, istər Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, istərsə də "Cənub qaz dəhlizi" - hamısı uğurlu olmuşdur.

Əminəm ki, Avropa qitəsində həm təbii qaz, həm də bərpaolunan enerji istehsalı ilə bağlı gələcək planlarımız uğurlu olacaqdır. Bunun üçün işimizi komanda şəklində davam etdirməli, bir-birimizi davamlı surətdə dəstəkləməliyik. Əminəm ki, gələn ilin fevralında Bakıda baş tutacaq növbəti görüşümüzdə biz yeni nailiyyətlərimiz barədə danışacağıq.

Diqqətinizə görə təşəkkür edirəm!

təhlükəsizliyi xəritəsinin müəllifinə çevrilir

* * *

Azərbaycanın energetika naziri **Pərviz ŞAHBAZOV:**

- Zati-aliləri cənab Prezident, Məşvərət Şurasının üzvləri adından Sizə dərin və əhatəli çıxışınıza görə səmimi təşəkkürümüzü bildiririk.

Bildiyiniz kimi, Məşvərət Şurası "Cənub qaz dəhlizi"nin uğurlu istismarı və fəaliyyəti üçün Sizin təşəbbüsünüzlə yaradılmışdır. Biz indi bunu genişləndiririk. Bu gün bir daha məhz Sizin strateji planlarınız və dəstəyiniz sayəsində biz artıq "yaşıl enerji" sahəsinə qədəm qoyuruq.

Cənab Prezident, bir daha təşəkkür edirik.

Rumıniya Prezidenti cənab Klaus Yohannisin burada olması bizim bugünkü görüşümüzə xüsusi məna verir. Təbii qazımızı Rumıniyaya artıq ixrac etməyə başlayırıq. Rumıniya bizim məhz "yaşıl enerji" sahəsində strateji tərəfdaşlarımızdan biridir. Mən indi sözü məmnuniyyətlə Rumıniyanın Prezidenti zati-aliləri cənab Klaus Yohannisə vermək istəyirəm.

* * *

Rumıniya dövlətinin başçısı çıxış etdi.

Prezident Klaus Yohannisin çıxışı

- Təşəkkür edirəm.

Hörmətli Prezident İlham Əliyev.

Xanım komissar Kadri Simson.

Hörmətli nazirlər, yüksəkrütbəli rəsmilər və nümayəndələr.

Əvvəla, "Cənub qaz dəhlizi"nə həsr olunmuş belə bir mötəbər illik toplantıda çıxış etmək fürsətinə görə təşəkkür edirəm. Mən bu gün sizinlə burada olmaqdan məmnunam və şərəf hissi duyuram. Bu, Rumıniyanın artıq altıncı iştirakıdır. Mən Bakıya bizi dəvətinə və qəbul etdiyinə görə Prezident İlham Əliyevə xüsusi təşəkkürümü bildirmək istəyirəm.

İki il bundan əvvəl istismara verilən "Cənub qaz dəhlizi" şübhəsiz ki, özünü və o cümlədən Avropanın enerji təhlükəsizliyində strateji əhəmiyyətini doğrultdu. Biz dəhlizin reallığa çevrilməsində müdrikliyini, siyasi iradəsini və qətiyyətini göstərmiş bütün şəxslərin səylərini alqışlayırıq. Dəhliz xüsusən indi daha böyük əhəmiyyət kəsb edir. Çünki Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi geosiyasi durumu kəskin şəkildə dəyişdi. Bu baxımdan və xüsusən də biz enerji təhlükəsizliyi haqqında danışırıqsa, bu belədir. Bu baxımdan Avropa İttifaqı və üzv dövlətlər etibarlı olmayan qaz təchizatından asılılığı kəskin şəkildə azaltmaq üçün həlledici addımlar atdılar. Çünki həmin qaz təchizatının geosiyasi dəyəri, sadəcə, çox baha başa gəlir.

Azərbaycan kimi etibarlı tərəfdaşlara doğru götürülmüş bu strateji kurs uzun müddət Rumıniya tərəfindən təşviq edilib. Biz 2009-cu ildən etibarən Rumıniya və Azərbaycan arasında strateji tərəfdaşlığın faydasını bir yerdə gördük. Avropanın enerji suallarına cavablar həmrəyliyi, regional əməkdaşlığı, mənbələrin və nəql yollarının şaxələndirilməsini nəzərdə tutur. Çünki "Cənub qaz dəhlizi" kimi layihələri əhatə edən prinsiplər məhz bunlardan ibarətdir.

Xanımlar və cənablar, 2022-ci ildə biz görünməmiş enerji çağırışları ilə üzləşdik. Qazın çatışmaması və ya münasib əlçatan qaz təchizatının olmaması, qiymətlərin dəyişkənliyi və bazarda qeyri-sabitlik baş verdi. Bu çağırışlar kompleks siyasəti və tənzimləyici qaydaları tələb edir. Avropa bazarına Xəzər qazının nəqli barədə Prezident Əliyev tərəfindən Azərbaycan adından şəxsən verilmiş təminatlar bazarlar üçün ən çətin anda çoxdan tələb olunan sabitlik və proqnozlaşdırmanı təmin etdi.

2022-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması "Cənub qaz dəhlizi"nin Avropa İttifaqının şaxələndirmə strategiyasının əsas komponenti kimi rolunun gücləndirilməsinə yol açır. Lap əvvəldən Rumıniya Avropanın enerji tələbatlarını qarşılamaqda Azərbaycana və "Cənub qaz dəhlizi"nə mühüm töhfəsini verdi və bunu etiraf etdi. Rumıniya Mərkəzi və Cənub-Şərqi Avropada yeni bazarlara doğru dəhlizin inkişafına və genişləndirilməsinə yönəlmiş səylərə qoşulmaqda öz davamlı öhdəliyini qeyd etdi. Biz artan milli istehlakımızı əhatə etmək üçün Xəzər qazının əlavə həcmlərinin alınmasında çox maraqlıyıq.

Xanımlar və cənablar, son illərdə mənim ölkəm qaz tranzit imkanlarının inkişafında və qonşu ölkələrlə bağlantının yaradılmasında xeyli sərmayələr yatırıb. İlk olaraq biz tamamilə yeni nəqlolunma infrastrukturunu Rumıniya ərazisində yaratdıq. Bu BRUA qaz boru kəməridir, həmçinin Bolqarıstan və Macarıstanla müvafiq qaydada interkonnektorların daha da təkmilləşdirilməsini tamamladıq. İkincisi, Rumıniyanın transqaz şirkəti Yunanıstan, Bolqarıstan və Macarıstanda olan qaz nəql sistemi operatorları ilə səylərini birləşdirərək şaquli dəhlizin inkişafına çalışdı. Beləliklə, 2022-ci ilin dekabrında dörd şirkətlə imzalanmış anlaşma memorandumu Cənubi və Mərkəzi Avropa arasında Rumıniya vasitəsilə qaz axınının iki istiqamətdə getməsini təmin edəcəkdir. Bu da bütöv regionun enerji təhlükəsizliyinə töhfə verəcəkdir. Üçüncüsü, 2022-ci ilin yanvar ayında Rumıniyanın nəql məsələsi ilə məşğul olan operatoru sərmayələri yatıraraq trans-Balkan qaz boru kəmərini məhz əks axın istiqamətində istismara verdi. Bu da Azərbaycandan Türkiyə, Bolqarıstan və Rumıniya vasitəsilə qaz həcmlərinin alternativ təchizat marşrutudur və həmçinin digər bazarlara çıxışı da təmin edir.

Mən Rumıniya üçün digər vacib bir layihəni də qeyd etmək istəyirəm. Bu da bizim strateji tərəfdaşlarımıza, Moldovaya aiddir. Çünki biz paytaxt Kişineuya məhz qazın təchizatına gəldikdə, bizim razılaşmamız 2021-ci ilin oktyabrında oldu. Bu, əslində, Moldovanın illik istehlakını təmin etməyə əlavə imkanlar yaradacaqdır. Yekun olaraq bütün bu davamlı səylər və Rumıniyanın yatırdığı sərmayələr "Cənub qaz dəhlizi"nin yeni bazarlara - Cənub-Şərqi Avropada və Mərkəzi Avropada genişləndirilməsinə imkan yaradır. Bu, əslində, hər iki tərəf üçün çox uduşlu vəziyyətdir, Azərbaycan öz təbii qazının ixracatını şaxələndirir və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verir.

Hörmətli iştirakçılar, təbii qaz, əslində, dekarbonlaşma prosesinə böyük dəstək verən bir haldır və Avropa İttifaqında Rumıniya fəal şəkildə təbii qazın və nüvə enerjisinin "yaşıl enerji" sahəsinə daxil edilməsini təşviq etmişdir. Bununla iqtisadiyyatlar karbondan azad oluna bilər. Bunun sayəsində uzun müddətdə təbii qazın Avropa İttifaqında istifadə edilməsi iqtisadiyyatı gücləndirəcək. Hazırda Rumıniya karbohidrogenlərin hasilatında və onların işlənilməsində öz rolunu oynayır. Qara dənizdə bununla bağlı yataqlar var. Lakin bundan əlavə, 2026-2027-ci illərdə həcmlər olacaqdır və Rumıniya birmənalı olaraq Avropada iqtisadiyyatların daha da güclü olmasını təmin edəcəkdir.

Eyni zamanda qeyd etmək istəyirik ki, bizim regionda əməkdaşlıq çox güclüdür. Əslində, mövcud potensial və transsərhəd əməkdaşlığına aid olan infrastrukturun inkişaf etdirilməsi gündəlikdədir. Bu baxımdan "yaşıl enerji"nin istehsalı və onun nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış razılaşma önəmlidir. Bu sənəd 2022-ci il dekabrın 17-də Prezident Əliyevin Buxarestə səfəri zamanı imzalandı və bunun sayəsində Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli daha güclü Avropa enerji çərçivəsinin təhlükəsizliyinə imkan yaradacaqdır. Bu həmçinin sizin planlarınızın həyata keçirilməsinə, iqtisadi rifahın təmin edilməsinə, təhlükəsizlik və iqlim sahəsində müvafiq tədbirlərin görülməsinə Avropa üçün və bizim tərəfdaşlarımız üçün imkan yaradacaq.

Xanımlar və cənablar, bir tərəfdən, Avropa İttifaqı və onun üzv dövlətləri, digər tərəfdən isə, Azərbaycan arasında enerji əməkdaşlığının strateji prioritetləri var. Bundan əlavə, əslində, bazarın məntiqi fəaliyyəti də tələb olunur. Mən sizi əmin etmək istəyirəm ki, mənim ölkəm regional əməkdaşlığa güclü və davamlı dəstək verəcəkdir. Həmçinin biz qarşımızda olan ümumi çağırışların dayanıqlı həll yollarının tapılmasında səylərimizi göstərəcəyik ki, enerji təhlükəsizliyi daha da güclənsin.

Təşəkkür edirik.

* * *

Pərviz ŞAHBAZOV: Təşəkkür edirəm, cənab Prezident. Sizin verdiyiniz güclü dəstəyə görə təşəkkür edirəm. Layihələrimizi dəstəkləyirsiniz və biz Rumıniya ilə enerji əməkdaşlığımızı çox yüksək dəyərləndiririk.

İndi isə mən Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsona söz vermək istəyirəm. Buyurun xanım, söz Sizindir.

* * *

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson çıxış etdi.

Komissar Kadri Simsonun çıxışı

- Hörmətli Prezident Əliyev.

Hörmətli nazirlər, xanımlar və cənablar.

Bu gün Bakıda olmaqdan çox məmnunam. Biz iki mühüm münasibətlə buraya toplaşmışıq - "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclasında və "Yaşıl Enerji" Məşvərət Şurasının 1-ci iclasında iştirak edirik.

Bu gün apardığımız müzakirə enerji bazarlarının qlobal səviyyədə dəyişməsi şəraitində baş tutur. Qlobal artım risk altındadır. Enerji təhlükəsizliyi isə bizi düşündürən birinci məsələdir. Bu səbəbdən Məşvərət şuralarının bu gün keçirilən toplantıları mühüm fürsət hesab olunur və bizə göstərir ki, Avropa İttifaqı, Azərbaycan və tərəfdaş ölkələr enerji təhlükəsizliyinin və bazarda sabitliyin təmin edilməsində birgə çalışırlar.

Biz həmçinin uzunmüddətli dayanıqlı enerji tərəfdaşlığının əsaslarını qoyuruq. Bu tərəfdaşlıq bərpaolunan enerjiyə və enerji sistemlərimizin daha sıx bir-birinə bağlı olmasına söykənir. Avropa İttifaqı və Azərbaycan artıq çox yaxşı əməkdaşlıq edirlər. Enerji sahəsində strateji tərəfdaşlığa dair bizim yeni anlaşma memorandumumuz "Cənub qaz dəhlizi"nin rolunu həm Avropa İttifaqı, həm Azərbaycan üçün gücləndirdi və onun genişlənməsinin dəstəklənməsi məqsədilə ümumi qətiyyətimizi nümayiş etdirdi. Rəqəmlər göz qarşısındadır. "Cənub qaz dəhlizi" boru kəməri ilə Avropa İttifaqına qaz təchizatı 2021-ci ildə 8,1 milyard kubmetrdən 2022-ci ildə 11,4 milyard kubmetrə çatmışdır. Bu artım Avropa İttifaqına qaz təchizatının şaxələndirilməsinə, onun təhlükəsizliyi və sabitliyinə böyük töhfə verərək mühüm rol oynamışdır.

Trans-Adriatik boru kəmərində aparılmış sonuncu mütləq sınağın nəticələri hazırkı buraxılış qabiliyyətinin iki dəfə artırılmasından xəbər verir. Qaz təchizatı sahəsində Azərbaycan ilə Avropa İttifaqı arasında artan əməkdaşlıq bizim diplomatik fəaliyyətimizin genişlənməsi ilə üst-üstə düşür. Həmin qarşılıqlı qətiyyət bu böhranı iqtisadi imkanlara çevirəcək. Biz həmçinin bu tərəfdaşlığın gələcəkdə bizi hansı səviyyəyə aparacağını bilməliyik. Sıxılmış maye qaz təchizatını artırdığımız halda "Cənub qaz dəhlizi" Avropa İttifaqına boru kəməri ilə nəql edilən qazın az sayda sabit və rəqabətcil mənbələrdən biri kimi qalacaqdır. Bu həmçinin Azərbaycanla birgə qüvvələrini birləşdirmək baxımından Xəzər bölgəsində digər tərəflər üçün iqtisadi cəhətdən potensial fürsətdir.

Sizə yaxşı məlumdur ki, Avropa İttifaqı həmçinin enerjiyə tələbatın məhdudlaşdırılması və bərpaolunan enerjinin artırılması üzərində çalışır. Bununla belə, biz qazımızın əvvəlki əsas təchizatından uzaqlaşaraq, Avropa İttifaqının əvəzləmək istədiyi qazın bütöv həcmi onu göstərir ki, etibarlı təchizatçılardan gələn təbii qaz tələbatı artırmaqda davam edəcəkdir.

Bərpaolunan enerjiyə marağımız o deməkdir ki, biz qazdan başqa digər enerji mənbələri üzərində etibarlı tərəfdaşlarımızla əməkdaşlığımızı genişləndirmək istəyirik. "Yaşıl Enerji" Məşvərət Şurasının fəaliyyətə başlaması həmin yeni istiqamət üzrə bu gün tərəfdaşlar arasında razılığın olmasını aydın şəkildə göstərir. Dayanıqlı enerji gələcəyinin formalaşdırılması böyük sayda alət və vəsaitlərdən istifadəni nəzərdə tutur. Avropa İttifaqı bərpaolunan enerjidən daha çox pay götürə biləcək bazarın qurulmasında böyük təcrübəyə malikdir. Keçmişdə qalan bir neçə çətin ilə baxmayaraq, elektrik enerjisi şəbəkəmiz özünün sabit və müqavimətli olduğunu göstərdi. Biz bu sahədə biliklərimizi bölüşməkdən məmnun olardıq. Əlbəttə, bir-biri ilə qarşılıqlı əlaqədə olan bazarlar və tərəfdaş ölkələr bu prosesin əsas hissəsidir. Azərbaycanda bərpaolunan enerjinin, xüsusən də dənizdə külək enerjisinin istifadə edilməmiş potensialı yaxşı məlum olan faktdır. Buna görə Azərbaycan Avropa İttifaqına bərpaolunan enerji və hidrogenin ixracatçısına çevrilmək potensialına malikdir. Bizim Avropa İttifaqı naminə enerji proqramımız bərpaolunan enerji güclərinin qurulmasını və şəbəkəyə qoşulmasını gücləndirmək üçün Azərbaycanı artıq dəstəkləyir. Avropa İttifaqı masa üzərinə öz nouhau texnologiyasını və özəl sərmayələrini qoyur.

Bildiyiniz kimi, bərpaolunan enerji məsələnin yalnız bir hissəsidir. Enerjiyə qənaət, həmçinin təchizat təhlükəsizliyinin gücləndirilməsi və dekarbonlaşmanın təmin edilməsi məqsədilə göstərdiyimiz səylər üçün açardır. Yeni anlaşma memorandumu ilə biz gündəliyi bütün istiqamətlərdə irəliyə doğru aparmaq üçün Azərbaycanla birgə işin davam etdirilməsini səmimiyyətlə arzulayırıq.

Hörmətli Prezident Əliyev.

Xanımlar və cənablar, nazirlər.

Ümumi iqtisadi rifah və geosiyasi sabitlik bir-biri ilə sıx bağlıdır. Vətəndaşlar enerji sahəsində əməkdaşlığımızdan yararlanacaqlar. Mən çıxışımı, sadəcə, "Cənub qaz dəhlizi"nin gələcəyinə aid müsbət nəticə ilə bitirmək istəyirəm. Həmçinin mən yeni "Yaşıl Enerji" Məşvərət Şurasında bərpaolunan enerji naminə çalışmaq üçün əməkdaşlığımızı səmimiyyətlə arzulayıram. Bu gün sizin hamınıza məhsuldar müzakirələr arzu edirəm. Sağ olun.

* * *

Pərviz ŞAHBAZOV: Hörmətli komissar Simson, dəyərli çıxışınıza görə Sizə təşəkkürümü bildirirəm. Biz "Cənub qaz dəhlizi"nin rolunun vacibliyini Sizin çıxışınızda gördük. Bununla bizim giriş sessiyamız başa çatır.

Hörmətli cənab prezidentlər, çox sağ olun ki, bu gün bizimlə burada oldunuz.

* * *

Sonra tədbir "Cənub qaz dəhlizi və "Yaşıl enerji" üzrə nazirlər sessiyası", "Cənub qaz dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam etdi.

Həmçinin Məşvərət Şurası çərçivəsində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında imzalanmış "yaşıl enerji" sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası üzrə Rəhbər Komitənin ilk iclası keçirildi.

* * *

Qeyd edək ki, tədbirlərdə Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksəksəviyyəli nümayəndələri iştirak edirlər.

İclaslarda enerji şirkətlərindən SOCAR, bp, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, "Bulgargaz EAD", "Bulgartransgaz", İCGB, "Fluxys", ROMGAZ SA, SACE, "Desfa", "TotalEnergies", "FGSZ Ltd", "SNAM, "Uniper, "Petronas", "ACWA Power", "Masdar", "Fortescue Future Industries", "WindEurope", "SolarPower Europe", maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar təmsil olunub.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətləri fəal çalışırlar

Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı 2020-ci ildə İtaliyaya dövlət səfərini, həmçinin ötən ilin sentyabrında rəsmi səfərini xatırlatdı, İtaliyanın Prezidenti və digər yüksək rəsmi şəxsləri ilə görüşlərini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev imzalanmış sənədlərə əsasən Azərbaycan-İtaliya əməkdaşlığının strateji tərəfdaşlıq ruhunda inkişaf etdiyini bildirdi, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu dedi.

İtaliya ilə Azərbaycan arasında əməkdaşlığın yalnız enerji sahəsini deyil, çox geniş sahələri əhatə etdiyi bildirildi, elm və təhsil sahəsində əməkdaşlıq xüsusi qeyd olundu. Diqqətə çatdırıldı ki, ADA Universiteti ilə İtaliya universitetləri arasında imzalanmış sənədə uyğun olaraq, Bakıda İtaliya-Azərbaycan Universitetinin açılması mühüm əhəmiyyət daşıyır.

Eyni zamanda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində İtaliya şirkətlərinin fəal çalışdıqları vurğulandı. Diqqətə çatdırıldı ki, Azərbaycanla İtaliya arasında əməkdaşlıq bütün sahələrdə dostluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir. Həmçinin iki ölkə arasında enerji sahəsində əməkdaşlığın vacib komponenti olan TAP layihəsinin əhəmiyyəti qeyd edildi.

İtaliyalı nazir öz növbəsində qəbula görə təşəkkürünü bildirdi və "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının nazirlər toplantısı çərçivəsində aparılan müzakirələrin əhəmiyyətini qeyd etdi. Nazir ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğuladı, Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynadığını dedi.

Cilberto Piketto Fratin yaxın gələcəkdə TAP layihəsinin ötürücülük qabiliyyətinin artırılmasının əhəmiyyətini qeyd etdi, İtaliyanın Azərbaycandan qaz idxalının artırılmasında maraqlı olduğunu bildirdi. Qonaq Azərbaycanın böyük bərpaolunan enerji potensialına malik olduğunu deyərək İtaliya şirkətlərinin gələcəkdə bu sahədə də ölkəmizlə əməkdaşlıq etmək niyyətində olduqlarını diqqətə çatdırdı.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Avropa İttifaqı gərgin zamanda Azərbaycanın dəstəyini və yardımını yüksək qiymətləndirir

Əvvəli 1-ci səh.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə iştirakına görə Kadri Simsona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ötən ilin iyulunda Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyətini vurğuladı.

Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədə uyğun olaraq, ölkəmizin qaz istehsalını 2027-ci ilədək artırmaq niyyətində olduğunu və Aİ-yə üzv ölkələr arasında qurulan interkonnektorlar vasitəsilə yeni bazarlara çıxış imkanlarının yarandığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində "Yaşıl enerji" üzrə nazirlərin 1-ci iclasının, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında nazirlər səviyyəsində görüşün keçiriləcəyini qeyd etdi.

Ölkəmizin bərpaolunan enerji sahəsində böyük resurslarının olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış sənədin də ölkəmizin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin Avropa bazarına çıxarılması üçün böyük perspektivlər vəd etdiyini bildirdi.

Azərbaycan Prezidenti "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində aparılacaq müzakirələr nəticəsində yeni təşəbbüslərin və ideyaların yaranacağına ümidvar olduğunu qeyd etdi. Kadri Simson Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumuna görə təşəkkürünü ifadə etdi və Azərbaycanın Avropa İttifaqına üzv ölkələrin qaza tələbatının ödənilməsində oynadığı rolunun, enerji təhlükəsizliyinə verdiyi töhfələrinin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı. Qonaq dedi ki, hazırda Aİ məkanında enerji təhlükəsizliyi baxımından gərgin zamanda Azərbaycanın dəstəyi və yardımı yüksək qiymətləndirilir. Energetika məsələləri üzrə komissar bildirdi ki, Aİ Azərbaycanla təbii qaz, "yaşıl enerji" sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır, həmçinin Azərbaycanla elektrik enerjisi ilə bağlı əməkdaşlıq imkanlarını yüksək qiymətləndirərək onu nəzərdən keçirir və bu istiqamətdə də əməkdaşlığa hazırdır.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı. Avropa İttifaqının Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına verdiyi töhfəsinin və Brüssel sülh prosesinin əhəmiyyəti vurğulandı.

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018; 2018, № 3, maddə 380, № 4, maddə 634; 2019, № 11, maddə 1689; 2021, № 5, maddə 429, № 7, maddə 701; 2022, № 4, maddə 292, № 7, maddə 696) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1. on səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"qoşulma xidmətinə görə ödəniş - tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulmasına (fiziki və ya texnoloji) görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğ;";

1.2. iyirmi dördüncü abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi beşinci - iyirmi yeddinci abzaslar əlavə edilsin:

"texnoloji qoşulma - qaz paylayıcısı ilə bağlanılmış qoşulma müqaviləsinə və verilmiş texniki şərtlərə uyğun olaraq, tikinti obyektindən qazpaylayıcı şəbəkənin qoşulma nöqtəsinədək qaz xətlərinin tikintisinə (çəkilməsinə) və ya əlavə qaz həcmi alınmasına dair layihənin hazırlanması və tikinti-quraşdırma işlərinin görülməsi, tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulması və qoşulma aktının tərtib edilməsinə dair göstərilən xidmət;

fiziki qoşulma - sifarişçinin qaz qurğularına qazın verilməsi üçün çəkilmiş qaz xəttinin qaz paylayıcısının təyin etdiyi qoşulma nöqtəsinə birləşdirilməsi;

mövcud qazpaylayıcı şəbəkə - ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə təzyiqi 0,3 Mpa-dək olan, həmçinin tikinti obyektinin yerləşdiyi (yerləşəcəyi) torpaq sahəsinin sərhədindən (girişindən) qazpaylayıcı şəbəkəyə qoşulma nöqtəsinədək düz xətt üzrə 100 metr təşkil edən məsafədə yerləşən şəbəkə.".

2. 4-cü maddənin 2-ci hissəsindən "qaz ekspertləri və ya" sözləri çıxarılsın.

3. 8-ci maddənin 1-ci hissəsinə "məişət qaz qurğularının" sözlərindən əvvəl "bu Qanunun 4-cü maddəsinin 2-ci hissəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin.

4. 13-cü maddə üzrə:

4.1. 3-cü hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

4.2. 4-cü hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tariflər:";

4.3. 6-cı hissənin birinci abzasında "dayandıra bilər" sözləri "dayandırır" sözü ilə əvəz edilsin;

4.4. 12-ci hissə üzrə:

4.4.1. birinci cümlədə "aparılmamış" sözü "sənədləri təsdiq edilməyən" sözləri ilə əvəz edilsin;

4.4.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə fiziki qoşulmasına görə qaz qurğusunun istifadəçiləri qaz paylayıcısına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə qoşulma xidmətinə görə ödəniş etməlidirlər.";

4.5. aşağıdakı məzmunda 12-1 - 12-3-cü hissələr əlavə edilsin:

"12-1. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə məişət qaz qurğuları quraşdırılan tikinti obyektlərinin mövcud qazpaylayıcı şəbəkəyə texnoloji qoşulmasına görə qaz qurğusunun istifadəçiləri qaz paylayıcısına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə qoşulma xidmətinə görə ödəniş etməlidirlər.

12-2. Ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə bu Qanunun 13-cü maddəsinin 12-1-ci hissəsində nəzərdə tutulan tələblərə cavab verməyən tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması bu Qanunun 13-cü maddəsinin 12-ci hissəsinə uyğun olaraq həyata keçirilir.

12-3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 13-cü maddəsinin 12-ci və 12-1-ci hissələrində nəzərdə tutulan ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) müəyyən etdiyi metodologiya əsasında müəyyən edir.".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 dekabr 2022-ci il

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin on səkkizinci abzasında, 13-cü maddəsinin 3-cü hissəsinin ikinci cümləsində, 4-cü hissəsinin birinci abzasında, 12-ci hissəsinin ikinci cümləsində, 12-1-ci və 12-3-cü (hər iki halda) hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 13-cü maddəsinin 3-cü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.3. həmin Qanunun 13-cü maddəsinin 12-3-cü hissəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1-ci maddəsinin on səkkizinci abzasında, 13-cü maddəsinin 4-cü hissəsinin birinci abzasında, 12-ci hissəsinin ikinci cümləsində, 12-1-ci hissəsində və 12-3-cü hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 3-cü hissəsinin ikinci cümləsinə uyğun olaraq, tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması qaydasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. həmin Qanunun 13-cü maddəsinin 12-3-cü hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Energetika Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında, qoşulma xidmətinə görə ödəniş məbləğinin hesablanmasına dair metodologiyanı beş ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin on səkkizinci abzasına uyğun olaraq, Azərbaycan Respublikası Energetika Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təklifləri əsasında, qoşulma xidmətinə görə ödənişin məbləğlərini bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulan normativ hüquqi aktlar təsdiq edildikdən sonra iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2004, № 7, maddə 526; 2007, № 6, maddə 601; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 291; 2018, № 3, maddə 410, № 4, maddə 654; 2021, № 7, maddə 728; 2022, № 4, maddə 319) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənd üzrə:

4.1.1. "və onuncu" sözləri ", onuncu və on səkkizinci" sözləri ilə əvəz edilsin;

4.1.2. "8-1-ci hissəsinin ikinci cümləsində" sözləri "3-cü hissəsinin ikinci cümləsində, 4-cü hissəsinin birinci abzasında, 8-1-ci və 12-ci hissələrinin ikinci cümlələrində, 12-1-ci və 12-3-cü (hər iki halda) hissələrində" sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bənddə "və ikinci cümlələrində" sözləri "cümləsində" sözü ilə əvəz edilsin;

4.3. 2.2-1-ci bəndə "hissəsində" sözündən sonra "və 13-cü maddəsinin 3-cü hissəsinin ikinci cümləsində" sözləri əlavə edilsin;

4.4. 2.2-2-ci bənddə "və 4-cü hissəsində" sözləri ", 4-cü hissəsində və 13-cü maddəsinin 12-3-cü hissəsində (ikinci halda)" sözləri ilə əvəz edilsin;

4.5. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin Qanunun 1-ci maddəsinin on səkkizinci abzasında, 13-cü maddəsinin 4-cü hissəsinin birinci abzasında, 12-ci hissəsinin ikinci cümləsində, 12-1-ci hissəsində və 12-3-cü hissəsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;".

5. "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 434 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2591) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.1.3-cü yarımbəndin birinci cümləsində "Nazirlər Kabineti" sözləri "Tarif (qiymət) Şurası" sözləri ilə əvəz edilsin;

5.2. 2.1-ci bənddən "Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birlikdə sahibkarların tikinti obyektlərinin qaz təchizatı şəbəkələrinə qoşulması qaydasının," və "qazın və" sözləri çıxarılsın, həmin bənddə "layihələrini" sözü "layihəsini" sözü ilə, "layihələrdə" sözü "layihədə" sözü ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2023-cü il

Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ildə Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 ili tamam olur.

Azərbaycan teatrı XIX əsrin taleyüklü ictimai-siyasi hadisələri fonunda köklü dəyişikliklər baş verərkən böyük maarifçi Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza dram janrını gətirdiyi və xalq teatrının peşəkar milli teatra çevrildiyi bir vaxtda təşəkkül tapmışdır. Həmin dövrdə ziyalılarımızın Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynamışdır.

Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilərək ictimai fikrin ön sıralarında dayanmış, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli təsir göstərmişdir. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə etmişlər.

Dramaturgiyamızın tarixinin hər bir inkişaf mərhələsində Azərbaycan teatrı orijinal aktyor məktəbi ilə əlamətdar olmuş, yüksək səhnə mədəniyyətinə malik sənətkarlar və istedadlı rejissorlar nəsli yetişdirmişdir. Ölkəmizdə bütünlüklə milli dəyərlər zəminində dolğun fəaliyyəti üçün geniş inkişaf perspektivləri açılan teatrlar şəbəkəsi vardır. Bu teatrların kollektivləri dünya təcrübəsindən uğurla bəhrələnərək davamlı yeniləşdirdikləri repertuarlarında mütərəqqi məzmunlu, humanist ideyalı əsərlərə xüsusi yer ayırmış, insanlarımıza milli dramaturji irsin dərin mənəviyyat aşılayan şah əsərləri və xarici ədəbiyyatın estetik zövq formalaşdıran qiymətli nümunələri ilə daha yaxından tanış olmaq imkanı qazandırmışlar.

Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir. Respublikamıza rəhbərlik etməyə başladığı ilk illərdən milli-mənəvi dəyərləri ön planda tutmaqla tarixi-mədəni irsimizə münasibətdə dönüş yaradan Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycan teatrının 100 illik yubileyinin təntənəli qeyd olunması diqqətəlayiq mədəniyyət hadisəsinə çevrilmiş və teatrımızın çiçəklənməsinə yeni stimul vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkənin mədəni-ictimai həyatının əhəmiyyətli hadisəsi kimi Azərbaycanda peşəkar milli teatr yaradılmasının 150 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2023-cü il

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 13 nömrəli Protokolunu imzalamaq səlahiyyətinin verilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 110[1]-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 13 nömrəli Protokolunu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin Nəcəf oğlu İsmayılova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Protokolu Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin Nəcəf oğlu İsmayılova verildiyi barədə Avropa Şurasının Baş katibinə bildiriş göndərsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 fevral 2023-cü il

Milli Məclisin Sədr müavini Adil Əliyev seçicilərin qəbulunu keçirib

Fevralın 3-də Milli Məclisin Sədr müavini Adil Əliyev parlamentə deputat seçildiyi 20 saylı Nərimanov II seçki dairəsində yerləşən deputat ofisində 38 nəfər şəhid ailəsi üzvlərinin, qazilərin və seçicilərin növbəti dəfə qəbulunu keçirib. Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan müxtəlif məzmunlu müraciətlər dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub.

Bununla yanaşı, digər müraciətlərin həll edilməsi ilə əlaqədar aidiyyəti üzrə məktublar hazırlanıb. Qəbul zamanı vitse-spiker bildirib ki, vətəndaşların sosial rifah vəziyyətinin yaxşılaşdırılması istiqamətində dövlətimiz tərəfindən lazımi addımlar atılır, eləcə də ölkə rəhbərinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, vətəndaşlar mütəmadi qəbul edilir, onların müraciətləri dinlənilərək müfaviq tədbirlər görülür.

Milli Məclisin Sədr müavini diqqətə çatdırıb ki, ünvanına daxil olan bütün şifahi və yazılı müraciətlər geniş şəkildə təhlil edilərək, mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq addımlar atılır.

"Azərbaycan"

Fuad ƏLƏSGƏROV: "Prezident İlham Əliyevin ölüm cəzasının bütün hallarda ləğvinə dair tapşırığı Heydər Əliyev siyasətinin humanist ənənələrinin davamıdır"

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ölüm cəzasının bütün hallarda ləğvinə dair 13 nömrəli Protokolunu imzalamaq səlahiyyətinin verilməsi ilə bağlı sərəncam imzalayıb. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov AZƏRTAC-a müsahibəsində Prezident İlham Əliyevin bu təşəbbüsünü şərh edib.

Bildiyiniz kimi, 2023-cü ildə ölkəmizdə ölüm cəzasının ləğv olunmasının 25-ci ildönümü qeyd edilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən aparılmış humanist siyasət nəticəsində 1993-cü ildən ölüm cəzasının icrasına moratorium tətbiq olunmuş, əfv və amnistiya institutları bərpa edilmiş, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində mühüm addımlar atılmışdır. Ölüm cəzasının ləğv edilməsi təşəbbüsü həmin siyasətin ən bariz nümunələrindən biri olmuşdur.

Ümummilli Lider Heydər Əliyev 1998-ci il fevralın 3-də Azərbaycan Respublikasının Milli Məclisinə ünvanladığı tarixi müraciətində insan həyatının ən yüksək dəyər, yaşamaq hüququnun hər bir insanın təbii və ayrılmaz hüququ olduğunu vurğulamış, ölüm cəzasının tətbiqini insan ləyaqətinə, bütövlükdə insan hüquqları ideyasına zidd olan qeyri-insani və amansız tədbir kimi qiymətləndirmiş, bu cəza növünün ləğvinin tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addım və hüquq sistemində islahatların mühüm mərhələsi olacağına əminliyini bəyan etmişdir.

Humanizm, ədalət, azadlıq kimi yüksək ideallara əsaslanaraq irəli sürülmüş bu təşəbbüs sayəsində Azərbaycan Respublikası Şərq aləmində ölüm cəzasını ləğv edən ilk ölkə olmuşdur.

Ulu Öndər ölüm cəzasının ləğvinə dair milli hüququn mühüm aktlarının qəbulu ilə yanaşı, bu sahədə əsas beynəlxalq sənədlər olan Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın İkinci Fakültativ Protokoluna, habelə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6 nömrəli Protokoluna ölkəmizin qoşulmasının da təşəbbüskarı olmuşdur.

XX əsrin 80-ci illərində qəbul edilmiş bu beynəlxalq sənədlərdə ölüm cəzasının ləğvi nəzərdə tutulsa da, müharibə dövründə törədilmiş müharibə cinayətlərinə görə bu növ cəzanın tətbiqi imkanı saxlanılmışdır. Lakin insan hüquqları sahəsində beynəlxalq hüququn təkamülü ölüm cəzasının bütün hallarda ləğv edilməsi istiqamətində davam etmiş, nəticədə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 13 nömrəli Protokolu qəbul edilmişdir.

Vurğulamaq lazımdır ki, Ümummilli Liderin müəyyən etdiyi humanist siyasətə sadiq qalaraq, ölkəmiz heç vaxt ölüm cəzasının tətbiqi imkanından istifadə etmək niyyətində olmamış, milli qanunvericiliyimizdə heç bir cinayətlə bağlı ölüm cəzası nəzərdə tutulmamışdır. Əksinə, cinayət-hüquq siyasətinin daha da liberallaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər daim görülməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları 57 mindən çox şəxsə şamil edilmiş, imzaladığı əfv sərəncamları 5900-ə yaxın şəxsi əhatə etmişdir. Eyni zamanda cinayət qanunvericiliyində edilmiş konseptual dəyişikliklər nəticəsində bir çox əməl dekriminallaşdırılıb, şəxsin cəmiyyətdən təcrid edilməsi ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi əhəmiyyətli dərəcədə genişləndirilib.

Ölüm cəzasının tamamilə, o cümlədən müharibə dövründə və ya qaçılmaz müharibə təhlükəsi zamanı törədilmiş cinayətlərə görə qadağan edilməsi istiqamətində beynəlxalq səviyyədə göstərilən səyləri nəzərə alaraq, 2023-cü il fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın ölüm cəzasının bütün hallarda ləğvinə dair 13 nömrəli Protokolunun Azərbaycan Respublikası adından imzalanması ilə bağlı müvafiq tapşırıqlar verib. Bu addımla dövlət başçısı yaşamaq hüququnu ən yüksək səviyyədə təmin etmək iradəsini bir daha nümayiş etdirib.

Rumıniyalı analitik: "Prezident İlham Əliyevin sayəsində Azərbaycan regionun iqtisadi mərkəzinə çevrilib"

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəsinin, bütövlükdə regionun təhlükəsizliyinin təmin olunmasında və inkişafında mühüm xidmətləri var.

Azərbaycanın inkişafa yönələn siyasətində qazandığı uğurlar məhz Prezident İlham Əliyevin adı ilə bağlıdır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Rumıniyada nəşr olunan nüfuzlu "Geopolitika" jurnalının baş redaktoru, professor, siyasi analitik Vasile Simileanu deyib.

Azərbaycan Şərqi Avropanın enerji sahəsində geosiyasi və geostrateji əhəmiyyət kəsb edən dövlət olmaqla yanaşı, həm də Mərkəzi Asiya ölkələri, xüsusilə Qazaxıstan və Özbəkistan üçün Avropaya körpü rolunu oynadığını bildirən professor qeyd edib ki, o, həmçinin Türkiyə ilə birgə mühüm layihələrin təşəbbüskarı olan türkdilli dövlətdir. "Azərbaycan bundan sonra da geostrateji və geosiyasi münasibətlərdə yüksəliş əldə edəcək. Azərbaycan Prezidenti İlham Əliyev iqtisadi, siyasi münasibətlərin daha da dərinləşməsinə, əməkdaşlıq üçün əlverişli platformanın yaradılmasına nail olub. Azərbaycan regionun strateji, iqtisadi mərkəzinə çevrilib", - deyə analitik əlavə edib.

Vasile Simileanu Azərbaycanla Rumıniya arasında münasibətlərə, Prezident Klaus Yohannisin Azərbaycana səfərinə toxunaraq strateji tərəfdaşlığın daha da dərinləşdiyini və möhkəmləndiyini vurğulayıb, Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrdə ölkəsinin potensialından istifadə edilməsinin zəruriliyini diqqətə çatdırıb. O vurğulayıb ki, iki ölkə arasında əməkdaşlıq, Azərbaycan qazının Rumıniyaya çatdırılması, "yaşıl enerji" ilə bağlı reallaşdırılacaq layihələr məhz strateji tərəfdaşlığın təzahürüdür.

Siyasi analitik sonda qeyd edib ki, iki ölkə arasında əməkdaşlıq potensialı getgedə artır, bu isə regionun və Avropa İttifaqının daha sıx əməkdaşlığı üçün çox vacib amillərdən biridir.

Əmək və sosial siyasət komitəsinin iclası olub

Fevralın 3-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2023-cü ilin yaz sessiyasında növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitənin sədri Musa Quliyev bildirib ki, gündəliyə üç məsələ daxil edilib və ilk iki məsələ, yəni birinci oxunuşda olan "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri mahiyyətcə eynidir. Layihələrdə Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun sərbəst vəsaitlərinin investisiyaya yönləndirilməsinin hüquqi əsaslarının yaradılması təklif olunub.

Komitə sədri bildirib ki, təklif olunan dəyişikliklər adıçəkilən fondların investisiya fəaliyyətinin təşkili, onların sərbəst vəsaitlərinin formalaşdırılması və o vəsaitlərdən optimal şəkildə istifadə edilməsi, maliyyə dayanıqlığının artırılması, yarana biləcək risklərin idarə olunması, sosial ödənişlərin davamlılığının təmin edilməsi kimi məqsədlər daşıyır. Bildirilib ki, fondların sərbəst vəsaitlərinin investisiya fəaliyyətinə cəlb edilməsi nəticəsində bu vəsaitlərin dəyəri qorunub saxlanılacaq və fondlar üçün əlavə gəlir mənbələri yaranacaq.

Komitə sədri bu məqsədlə qanunvericiliyə daxil edilən anlayışlar barədə danışıb. O, diqqətə çatdırıb ki, investisiyaya yönəldilən sərbəst vəsait, investisiya gəlirləri və onun istifadə olunmamış qalığı Azərbaycan Respublikasının Mərkəzi Bankında açılmış hesaba toplanacaq və uçotu ayrıca aparılacaq.

İclasda qanun layihələri ilə bağlı çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev bildirib ki, son zamanlar həm sosial sığorta haqlarının, həm də işsizlikdən sığorta haqlarının yığılmasında inzibatçılıq xeyli təkmilləşdirilib, eyni zamanda digər sosial proqramların icrası da keyfiyyətcə yaxşılaşdırılıb və sözügedən fondların sərbəst qalan vəsaitlərindən gələcək nəsillər üçün, bu fondların maliyyə dayanıqlığının artırılması üçün istifadə oluna bilər. Nazir müavini bunu ölkədə şəffaflığın və hesabatlılığın artırılması, eyni zamanda ölkənin iqtisadi gücünün, qüdrətinin yüksəldilməsi istiqamətində həyata keçirilən islahatların əyani sübutu kimi dəyərləndirib.

Anar Əliyev qanun layihələrində təklif olunan dəyişikliklərin gələcək nəsillərin sosial müdafiəsinin təmin edilməsinə yönəlik olduğunu vurğulayıb və Sosial Sığorta Fondunun və Dövlət Sosial Müdafiə Fondunun sərbəst vəsaitlərinin idarə olunmasında şəffaflıq və hesabatlılığın təmin olunması üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən xüsusi qaydaların təsdiq olunacağını bildirib.

Qanun layihələrinin müzakirəsində Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, komitənin üzvləri Ziyad Səmədzadə, Jalə Əliyeva, Vüqar Bayramov, İlham Məmmədov, Aqil Məmmədov, Arzu Nağıyev çıxış ediblər. Deputatlar ölkədə investisiya mühitinin yaxşılaşdırılması, dövlət zəmanətli investisiya imkanlarının genişləndirilməsi zəminində adıçəkilən fondların sərbəst vəsaitinin investisiyaya yönəldilməsini təqdir ediblər, təklif edilən yeni yanaşmanı dövrün tələbi kimi dəyərləndiriblər. Dəyişikliklərlə bağlı qeydlərini və suallarını səsləndirən millət vəkilləri fondların sərbəst vəsaitlərinin idarəolunmasında şəffaflığın və hesabatlılığın təmin olunmasının, investisiyalarda risklərin nəzərə alınmasının vacibliyini vurğulayıblar.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirərək, suallarını cavablandırıblar. Bildirilib ki, həm İşsizlikdən Sığorta Fondunun, həm də Dövlət Sosial Müdafiə Fondunun sərbəst vəsaitlərinin optimal şəkildə idarə olunması ilə vətəndaşlarımızın sosial təminatının yaxşılaşmasına, onların pensiyalarının və müavinətlərinin artırılmasına, eyni zamanda məşğulluq tədbirlərinin daha geniş və səmərəli şəkildə həyata keçirilməsinə əlavə imkanlar yaranacaq.

Müzakirələrin sonunda "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi və "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Sonra komitədə Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Əməyin Təhlükəsizliyi və Gigiyenası haqqında" 1981-ci il tarixli 155 nömrəli Konvensiyasının təsdiqi ilə bağlı hazırlanmış Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə baxılıb. Layihə ikinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

İclasda deputatlar Əziz Ələkbərov, Rauf Əliyev, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Dövlət Sosial Müdafiə Fondunun direktoru Himalay Məmişov və digər rəsmi şəxslər iştirak ediblər.

"Azərbaycan"

Müdafiə Nazirliyi xəbər verir

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində yeni tədris dövrünün nəzəri məşğələləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, məşğələlərdə hərbi qulluqçulara onların vəzifə borcu və qarşıya qoyulan tapşırıqlar, eləcə də silah-texnikanın xüsusiyyətləri, onların səmərəli istifadə olunması və təhlükəsizlik qaydaları çatdırılır.

Qeyd edək ki, qoşunların döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasını təmin etmək məqsədilə yeni tədris dövründə Azərbaycan Ordusunun hərbi hissələrində döyüşə hazırolma vəziyyətinin yoxlanılması üzrə tədbirlər həyata keçiriləcək. Bölmələr "Həyəcan" siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edərək təlim mərkəzlərinə və ümumqoşun poliqonlarına hərəkət edəcəklər.

* * *

"N" saylı hərbi hissəsində "Pilotsuz uçuş aparatlarının (PUA) operator-pilot və texnik kursu"nu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

Tədbirdə çıxış edənlər PUA-nın İkinci Qarabağ müharibəsində effektiv tətbiqindən danışıblar, kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçuları təbrik edərək, onlara gələcək xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Bildirilib ki, kurs zamanı dinləyicilərə PUA-nın sökülüb-yığılması, praktiki uçuşların icrası, həmçinin uçuş və kəşfiyyatın aparılmasının növləri üzrə məşğələlər keçirilib. Bununla yanaşı, hərbi qulluqçular müxtəlif ərazi relyeflərində hava kəşfiyyatı apararaq şərti düşmənin yerüstü hədəflərinin koordinatlarının təyin edilməsi və əldə edilən məlumatların idarəetmə məntəqələrinə ötürülməsi üzrə nəzəri və praktiki vərdişləri mənimsəyiblər.

Qeyd edək ki, kurs zamanı dərslər Vətən müharibəsi və son döyüş əməliyyatlarında qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla keçirilib.

AZƏRTAC

İlham Əliyevin enerji komandası

Avropa rəsmən Azərbaycanı enerji təhlükəsizliyinin əsas təminatçılarından biri elan etdi



Əvvəli 1-ci səh.

Qeyd edək ki, "Cənub qaz dəhlizi" çərçivəsində yaradılan Yunanıstanla Bolqarıstan arasındakı interkonnektor da bu layihənin genişləndirilməsindən xəbər verir. Bu interkonnektorun açılması Bolqarıstana təbii qazın tədarükünə başlamağa imkan verir, eyni zamanda qonşu ölkələrə qaz təchizatının genişləndirilməsini nəzərdən keçirməyə şərait yaradır.

"Biz nəinki hasilatı, o cümlədən ixracı artıracağıq və onun coğrafiyasını genişləndiririk. Əminəm ki, bu gün layihəyə qoşulmuş ölkələr bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin biz digər interkonnektorlarla Avropada daha çox ölkəni layihəyə qoşa biləcəyik" - deyə Prezident İlham Əliyev bildirib.

Neft-qaz sektorundakı layihələri qətiyyətlə reallaşdıran Azərbaycan yaşıl və bərpaolunan enerji istehsalı istiqamətində də qarşıya konkret hədəflər qoyub və yaxın vaxtlarda ölkəmiz Avropaya həm də elektrik enerjisi ixrac edəcək. Ötən il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Prezident İlham Əliyev qeyd edib ki, bu, bizim səylərimizin ümumu sinergiyasıdır: "Biz enerji təhlükəsizliyi sahəsində yeni bir səhifə açırıq".

Azərbaycanın quruda külək və günəş enerjisi potensialının həcmi 27 qiqavatdan çoxdur. Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ötən il 240 meqavat gücündə Külək-Elektrik Stansiyasının və 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyasının təməli qoyulub. BP şirkəti ilə əməkdaşlıq çərçivəsində işğaldan azad edilmiş Cəbrayıl rayonunda 240 meqavatlıq enerji stansiyası yaradılacaq. Dünən Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hazırda 500 meqavatlıq günəş enerjisi stansiyasının tikilməsinə dair də danışıqlar aparılır.

Prezident İlham Əliyev ölkəmizin enerji potensialını düzgün realizə etməklə, qlobal səyləri birləşdirməklə beynəlxalq enerji gündəliyində Azərbaycanın mövqelərini sürətlə möhkəmləndirir, rolunu artırır. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasları və bu iclaslarda söylənən fikirlər bunu bir daha təsdiqlədi.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

"Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət şuraları çərçivəsində nazirlərin iclasları plenar sessiyalarla davam edib

Fevralın 3-də Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasları işini "Cənub qaz dəhlizi və "yaşıl enerji" üzrə Nazirlər sessiyası", "Cənub qaz dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, nazirlər sessiyasında açılış nitqi ilə çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurasının fəaliyyətə başlamasının təbii qazla bərabər, "yaşıl enerji"nin də ölkəmiz üçün prioritet olduğunu təsdiqlədiyini deyib. Azərbaycanın enerji təchizatında region ölkələri və Avropanın etibarlı strateji tərəfdaşı olduğunu vurğulayan nazir deyib: "2023-cü il həm "Cənub qaz dəhlizi", həm də Xəzərin "yaşıl enerjisi"nin Avropaya ötürülməsi ilə bağlı fəaliyyətimizdə həlledici ildir. 2022-ci ildə "Cənub qaz dəhlizi" ilə Avropaya qaz tədarükü 11,4 milyard kubmetrə çatdırıldı. Qaz tədarükünün 2027-ci ilə qədər iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması üçün infrastruktura və apstrimə investisiya ilə bağlı qərarlarımızı tezləşdirməli, vaxt itirmədən bütün pay sahibləri mövqelərini konsolidasiya etməli və dəhlizin hərtərəfli şaxələnmə ilə genişləndirilməsinə başlamalıyıq. Bu gün mənbəyi Azərbaycan olan "yaşıl enerji" dəhlizinin yaradılması da strateji prioritetimizdir. Ötən ilin dekabrında Avropa Komissiyasının siyasi dəstəyi ilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Xəzərin Avropaya "yaşıl enerji" ilə birləşdirilməsi üzrə tarixi addım atdılar. XXI əsrin "yaşıl enerji" dəhlizi olmağa iddialı bu marşrutla ilkin mərhələdə 3-4 QVt-lıq "yaşıl enerji"nin ötürülməsi nəzərdən keçirilir. Xarici enerji şirkətləri ilə 25 QVt-dan çox "yaşıl enerji" layihələri üzrə əməkdaşlığımız imkan verir ki, Azərbaycan yaxın gələcəkdə Avropa üçün "yaşıl enerji"ni və hidrogeni də təchiz edən mühüm və etibarlı tərəfdaşa çevrilsin".

Türkiyənin energetika və təbii ehtiyatlar naziri Fatih Dönməz çıxışında bunları deyib ki, TANAP-ın "Cənub qaz dəhlizi"nin əsas komponenti kimi birgə əməkdaşlığımızın konkret nümunəsi olduğunu deməyə ehtiyac yoxdur. "Bu dəhliz ortaq hədəfin ölkələri birləşdirə biləcəyini göstərir. Bütün bu nəhəng layihələr sıx əməkdaşlıq sayəsində səmərəli şəkildə həyata keçirilməkdədir. Bu dəhlizin reallaşdırılması və Avropaya kommersiya qazının axınının təmin edilməsi xüsusilə bu hədəfə çatmaq üçün önəmli bir addımdır. Qaz həcmini artırmaq üçün əlavə ehtiyatlara və mənbə ölkələrinə ehtiyac var. Bu kontekstdə biz regionumuzun rifahı naminə Azərbaycan və Türkmənistanla əməkdaşlığı inkişaf etdirməyə hazırıq", - deyə o qeyd edib.

İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto Fratin bildirib: "Xəzər regionunun enerji resurslarının potensialı perspektivdə də enerji siyasətimiz üçün vacib rol oynayır. Yeni uzunmüddətli təchizat müqavilələri vasitəsilə Avropa İttifaqına qaz tədarükünün 2027-ci ilə qədər ən azı 20 milyard kubmetrə çatdırılması üçün "Cənub qaz dəhlizi"nin tutumunun artırılacağına ümid edirik. Bunun, sadəcə, istehlakçılar və tranzit ölkələr üçün deyil, həm də istehsalçı ölkələr üçün önəmli perspektiv olduğuna inanırıq".

ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxman çıxışında ABŞ-Azərbaycan tərəfdaşlığının regional enerji əməkdaşlığı və təmiz enerjiyə keçid vasitəsilə enerji təhlükəsizliyi üçün zəmin yaradacağını qeyd edib.

Böyük Britaniyanın enerji təhlükəsizliyi və iqlim üzrə regional səfiri David Moran isə vurğulayıb: "Biz bp və digər Britaniya şirkətlərinin "Cənub qaz dəhlizi" və Azərbaycanın tərəqqisində oynadıqları transformativ roldan qürur duyur, Azərbaycanın yaşıl iqtisadiyyatın əsasının qoyulduğu bir zamanda əməkdaşlığın davam edəcəyinə ümid edirik".

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Romeo Mikautadze "Cənub qaz dəhlizi"nin Avropa İttifaqına üzv ölkələrin və onun hüdudlarından kənarda enerji təhlükəsizliyinə töhfə verməsinin Avropa üçün xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Deyib ki, bundan əlavə, dəhliz boyunca və onun sərhədlərindən kənarda yerləşən ölkələrin dinamik proseslərinə və tərəfdaşlığına da start verib. Qeyd olunub ki, Gürcüstan "Cənub qaz dəhlizi"nin fəal tərəfdarıdır və layihə bu ölkənin enerji baxımından körpü rolunu oynaması üçün çox vacibdir.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto deyib: "Gərgin enerji böhranı səbəbindən Azərbaycanın Avropa üçün əhəmiyyəti artıb. Cənubi Qafqazda hasil edilən təbii qazın həcminin artırılması qısa və ortamüddətli perspektivdə şaxələndirmə üçün ən əlverişli seçimdir. Azərbaycanda təbii qaz hasilatının artırılması Macarıstan və Mərkəzi Avropanın enerji təhlükəsizliyi üçün vacib rol oynaya bilər, lakin bunun üçün Avropa İttifaqının da dəstəyi ilə infrastrukturun inkişafı tələb olunur. Biz macarlar Azərbaycan qazının ən qısa zamanda Macarıstanın enerji təhlükəsizliyinə töhfə verəcəyinə ümid edirik".

Rumıniyanın energetika naziri Virgil Daniel Popesku bildirib ki, Rumıniyanın Bakıda ən yüksək səviyyədə - Prezidenti Klaus Yohannis, həmçinin energetika naziri tərəfindən təmsil olunması ölkənin "Cənub qaz dəhlizi"nin genişləndirilməsi planlarını dəstəklədiyini bir daha təsdiqləyir. Hazırkı dövrdə qaz nəqli infrastrukturunun inkişafı Cənub-Şərqi və Mərkəzi Avropa dövlətlərinin enerji təhlükəsizliyinin möhkəmləndirilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu işdə Rumıniya tam etibar edilə biləcək tərəfdaş olacaq.

Bolqarıstanın energetika naziri Rossen Hristov çıxışında diqqətə çatdırıb ki, enerji sektorundakı qlobal çağırışlar böyük səylər tələb edir. "Cənub qaz dəhlizi" dəyişən geosiyasi şəraitdə Avropanın təbii qazla təchiz edilməsinin ən səmərəli üsuluna çevrilib. Bolqarıstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən tərəfdaşlardır.

Yunanıstanın Ətraf Mühit və Energetika Nazirliyinin enerji və mineral ehtiyatlar üzrə baş katibi Aleksandra Sdoukou isə deyib: "Trans-Adriatik qaz kəməri (TAP) Avropa İttifaqının enerji təchizatının şaxələndirilməsini gücləndirən strateji infrastrukturdur. Həmçinin əlaqəli şəbəkə infrastrukturunun inkişafını asanlaşdıran magistral boru kəməri kimi xidmət edir. TAP-ın ötürmə gücünü ikiqat artırmaq səylərinə dəstəyimizi vurğulamaq istərdim. Yaxın gələcəkdə Yunanıstan əlavə olaraq təxminən 1 milyard kubmetr Azərbaycan qazı ala bilər".

Albaniyanın infrastruktur və energetika nazirinin müavini Ilir Bejtja bildirib ki, ölkəsi 2023-cü ildə Enerji Birliyinə sədrlik edir. Bu il üçün hədəflər enerji istehsalının şaxələndirilməsində daim bərpaolunan mənbələrə əsaslanmaq, səmərəliliyin artırılması yolu ilə enerjiyə qənaət edən lider ölkə olmaq, sənaye və energetika sahələrinin qaz təchizatı üçün təbii qaz infrastrukturunu inkişaf etdirməkdən ibarətdir. Albaniyanın məqsədi ekoloji cəhətdən təmiz enerji istehsal etməkdir.

"İndi enerji sahəsində daha sıx əməkdaşlıq qurmaq həmişə olduğundan daha vacibdir. Moldovadakı enerji böhranı və Avropada təbii qazın qiymətinin artması təbii qaz təchizatı mənbələrinin şaxələndirilməsinin vacibliyini bir daha göstərir. Altı ölkəni əhatə edən bu qaz nəqli sistemi, əvvəllər təbii qaza çıxışı olmayan regionlarda da, enerji mənbələrinin şaxələndirilməsinə kömək edir". Bu fikirləri isə Moldova Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Andrei Spinun söyləyib.

Monteneqronun Baş nazirinin müavini, kapital investisiyaları naziri Ervin İbrahimoviç deyib ki, Avropa "Yaşıl Enerji" Sazişinə və Avropa İttifaqının enerji siyasətinə uyğun olaraq, ölkəsi "yaşıl enerji"yə keçid, karbonsuzlaşdırma, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və enerji səmərəliliyinin yüksəldilməsi, həmçinin qonşu ölkələrin enerji sistemlərinə qoşulmaq üçün infrastruktur obyektlərinin inşası vasitəsilə enerji sektorunun inkişafını planlaşdırır. İon-Adriatik Boru Kəmərinin reallaşdırılması Monteneqro ilə yanaşı, bütün region üçün faydalı olacaq.

Serbiyanın mədənçilik və energetika naziri Dubravka Djedovic mövqeyini belə ifadə edib: "Serbiya enerji təhlükəsizliyinə və iqtisadi inkişafa dəstək verən bu böyük dəyər zəncirinin bir hissəsi olmağa çalışır. Serbiya "Cənub qaz dəhlizi"nə qoşulmaqla təchizat marşrutlarını şaxələndirəcək. Biz Azərbaycanı illik tələbatımızın üçdəbirini ödəyə biləcək qaz təchizatçısı və mənbələrimizin şaxələndirilməsində əsas tərəfdaşlarımızdan biri kimi tanımışıq. Bu enerji mənbəyinin təchizat şərtləri ilə bağlı müzakirələr Serbiya istiqamətində 1,8 milyard kubmetr qaz tutumu olan və bu ilin payızında yekunlaşacağını gözlədiyimiz qaz qovşağının tikintisi ilə paralel aparılır. Biz qazın ilk tədarükünü bu ilin əvvəlində gözləyirik. Lakin bu, bütün iştirakçı tərəflərin kommersiya danışıqlarının sürətindən də asılıdır və ümid edirik ki, Azərbaycandan qazın Serbiya istiqamətində qısa zamanda nəqli üçün maksimum səmərəliliyə nail olacağıq".

Xorvatiyanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin enerji üzrə baş direktoru Kristina Celic isə bildirib: "Bu gün Azərbaycanda olmağımın əsas səbəbi olan İon-Adriatik Boru Kəməri layihəsinin əhəmiyyətini vurğulamaqdır. Bu, Avropa İttifaqı sərhədindən Cənub-Şərqi Avropaya qaz tədarükünü təmin edəcək dörd ölkə arasında uğurlu əməkdaşlığın nümunəsidir".

Çıxışlardan sonra sessiyalar başlayıb. "Cənub qaz dəhlizi": Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" mövzusunda sessiyasında SOCAR, bp, Azərbaycan Qaz Təchizatı Şirkəti, TANAP, TAP, Asiya İnkişaf Bankı və Dünya Bankının nümayəndələrinin "Cənub qaz dəhlizi" layihəsi üzrə hesabatları təqdim edilib.

"Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" üzrə sessiyada isə Məşvərət Şurası formatında əməkdaşlığın "yaşıl enerji" istiqamətində genişləndirilməsinə diqqət yetirilib. Bildirilib ki, ötən ilin dekabrında Avropa Komissiyasının dəstəyi ilə "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilə dördtərəfli formatda əməkdaşlığın əsası qoyulub. Lakin Xəzər dənizi ilə Qara dəniz, Azərbaycan ilə Avropa arasında "yaşıl enerji" körpüsünün qurulması daha geniş "yaşıl beynəlxalq komanda"nın formalaşmasını zəruri edir. Çünki "Cənub qaz dəhlizi" kimi bu dəhliz də Avropa İttifaqı və Cənub-Şərqi Avropa ölkələrinə enerji təchizatını və tranzit marşrutlarını şaxələndirəcək.

Sessiyada BOEMDA, SOCAR, "Masdar", bp, "ACWA Power" "Fortescue Future Industries", "WindEurope", "SolarPower Europe", Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası (İFC), Asiya İnkişaf Bankı və Dünya Bankının "yaşıl enerji"yə keçid, enerji keçidi üzrə investisiya və bazar perspektivləri, bərpaolunan enerji sahəsində həyata keçirilən layihələrlə bağlı təqdimatları dinlənilib.

Azərbaycanın və Macarıstanın XİN başçıları görüşüblər

Fevralın 3-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində görüşdə iştirak məqsədilə ölkəmizə səfərdə olan Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşü olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Macarıstan arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən cari regional vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov, Azərbaycan və Macarıstan arasında müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, təhsil, humanitar və s. sahələr üzrə əməkdaşlığın yüksələn xətt üzrə inkişafını məmnunluqla qeyd edib. İki ölkə arasında enerji təhlükəsizliyi, o cümlədən alternativ enerji sahəsində əməkdaşlığın inkişafını xüsusilə vurğulayan nazir Ceyhun Bayramov ötən il dekabrın 17-də imzalanmış, özündə Xəzər və Qara dənizləri regionunda bərpa olunan enerji potensialından istifadə edilməsini, o cümlədən enerji təchizatının şaxələndirilməsini nəzərdə tutan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in bu sahədə əməkdaşlığa mühüm töhfə verdiyini bildirib.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, sülh gündəliyinin irəli aparılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, Ermənistanın bu prosesə xələl gətirən hərbi-siyasi təxribatları barədə qarşı tərəfi məlumatlandırıb. Laçın yolu ətrafında Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin haqlı etirazına səbəb olan təxribatlardan bəhs edən nazir Ceyhun Bayramov hadisələrlə bağlı Ermənistan tərəfinin əsassız iddialarının beynəlxalq ictimaiyyəti yanıltmaq məqsədi daşığını bildirib. Nazir, eyni zamanda, bölgədə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib.

Nazir Peter Siyarto Macarıstanın iki ölkə arasında strateji xarakter daşıyan münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu, bu xüsusda mövcud potensialdan istifadənin zəruriliyini qeyd edib. Əlaqələrin bu səviyyədə inkişafında iki ölkə arasında mövcud müqavilə-hüquq bazasının, xüsusilə strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin əhəmiyyəti vurğulanıb. İkitərəfli iqtisadi komissiya üzrə aparılan işlərdən məmnunluq ifadə olunub. Avropanın enerji təhlükəsizliyində Azərbaycanın roluna istinad edən nazir Peter Siyarto bu xüsusda həyata keçirilən birgə layihələrin əməkdaşlığa töhfəsini vurğulayıb. O, eyni zamanda, Azərbaycan tərəfindən aparılan bərpa və yenidənqurma işlərinə macar şirkətlərinin cəlb olunması perspektivlərinin olduğunu bildirib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

"Yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə dörd ölkənin nazirlərinin ilk iclası keçirilib

Fevralın 3-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərinin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərinin 1-ci iclasları çərçivəsində "Azərbaycan Respublikası, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə dörd ölkənin nazirlərinin ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf nazirinin birinci müavini Romeo Mikautadze, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto və Rumıniyanın energetika naziri Daniel Virgil Popeskunun iştirakı ilə iclasda "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə gələcək fəaliyyətin konsepsiyası müzakirə olunub. Tədbirdə Avropa İttifaqını enerji məsələləri üzrə komissar Kadri Simson təmsil edib.

İclasda enerji təchizatı və tranzit marşrutlarının şaxələndirilməsi üçün "yaşıl enerji" layihələrinin həyata keçirilməsinin strateji əhəmiyyət daşıdığı vurğulanıb. Mövcud bərpaolunan enerji potensialından istifadəni genişləndirmək və "yaşıl elektrik enerjisi" ticarətini inkişaf etdirmək məqsədilə dörd ölkə arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib.

"Yaşıl enerji"nin Xəzər dənizindən Avropaya ötürülməsi ilə bağlı məsələlərin koordinasiyalı şəkildə yerinə yetirilməsi üçün işçi qrupunun yaradılması razılaşdırılıb. Sonda iclasın yekunlarına dair protokol imzalanıb.

Xatırladaq ki, "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" 2022-ci il dekabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Macarıstanın Baş naziri Viktor Orban tərəfindən Buxarestdə imzalanıb. İmzalanma mərasimində Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen də iştirak ediblər.

Aİ ilə Azərbaycan arasında "yaşıl enerji"yə keçid strategiyası barədə fikir mübadiləsi aparılıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Avropa İttifaqının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsonla görüşüb.

AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə xüsusi önəm verdiyini, münasibətlərin artan dinamikasında qarşılıqlı səfərlərin, yüksək səviyyəli görüşlərin əhəmiyyətini vurğulayıb, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təminatında etibarlı tərəfdaş olduğunu diqqətə çatdırıb.

Görüşdə Avropa İttifaqı tərəfindən Azərbaycanın bərpaolunan enerji istehsalı sahəsində böyük potensialı qeyd edilib, "yaşıl enerji"yə keçid strategiyası, resurslardan səmərəli istifadə və enerji sahəsində tərəfdaşlığın gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

Energetika Nazirliyi və "ACWA Power" külək enerjisi layihələri üzrə əməkdaşlıq sənədlərini imzalayıblar

Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası Nazirlərin 9-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası Nazirlərin 1-ci iclası çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında "Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb.

AZƏRTAC xəbər verir ki, energetika naziri Pərviz Şahbazov deyib: "Bu gündən "ACWA Power" şirkəti ilə tərəfdaşlığımız ümumi gücü 2,5 QVt olan külək-elektrik stansiyaları və ölkəmizdə ilk dəfə olaraq enerji saxlanc sistemlərinin yaradılması üzrə layihələrlə genişlənir. Bu layihələr Azərbaycanın "yaşıl artım" ölkəsi və "yaşıl enerji" təchizatçısı kimi inkişafına dair dövlət siyasətinin həyata keçirilməsinə növbəti töhfələrdir. "ACWA Power" ilə birgə fəaliyyətimiz Xəzərdən Avropaya planlaşdırılan "yaşıl enerji" dəhlizi üçün yeni gücləri təmin etməklə bərabər, karbon emissiyalarının azaldılması, enerji keçidinin sürətləndirilməsi üçün də əhəmiyyətlidir".

"ACWA Power" şirkətinin sədri Mohammad Abunayyan bildirib: "Azərbaycan müdrik və uzaqgörən rəhbərlik altında daha təmiz, daha davamlı gələcəyə doğru irəliləyir. Biz "ACWA Power" şirkəti olaraq azərbaycanlı tərəfdaşlarımızla olan münasibətlərimizi yüksək qiymətləndiririk və bu gün yeni sazişlərin imzalanması ilə ölkənin enerji transformasiyasının sürətləndirilməsində rolumuzu genişləndirməkdən məmnunuq".

Qeyd edək ki, hazırda "ACWA Power" şirkəti ilə 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının inşası üzrə əməkdaşlıq edilir.

Avropa İttifaqı Azərbaycanla enerji sahəsində əməkdaşlığı möhkəmləndirməkdə israrlıdır

Azərbaycanın kifayət qədər təbii qaz ehtiyatları var. Azərbaycan Türkiyə bazarına ənənəvi təbii qaz tədarükçüsüdür və gələcəkdə ikitərəfli münasibətlər daha da genişlənəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə energetika naziri Pərviz Şahbazov fevralın 3-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının yekunlarına dair keçirilən brifinqdə bildirib.

Qeyd edib ki, Türkiyə ərazisi ilə Balkan ölkələrinə qazın tranziti məsələsi həllini tapıb. Hazırda Türkiyə vasitəsilə Balkan ölkələrinə qazın çatdırılması üçün hazırlıq işləri gedir. Tranzitlə bağlı hər hansı xüsusi sənədin imzalanmasına ehtiyac yoxdur. Çünki vaxtilə bununla bağlı müvafiq sənədlər imzalanıb.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson deyib: "Avropa İttifaqı Azərbaycanla enerji sahəsində əməkdaşlığı möhkəmləndirməkdə israrlıdır. Bizim Azərbaycanla enerji sahəsində əlaqələrimiz çox güclənir. Azərbaycan bizim etibarlı, eyni zamanda etimad göstərdiyimiz tərəfdaşımızdır. Biz Azərbaycanda enerji sahəsinə sərmayələr yatırırıq. Enerji sabitliyinin təmin edilməsində "Cənub qaz dəhlizi"nin böyük rolu var".

Avropa İttifaqı qarşıdakı illərdə Azərbaycanın qaz təchizatının həcmini iki dəfəyə qədər artırılmasını gözləyir.

O qeyd edib ki, bu gün keçirilən tədbir çərçivəsində Azərbaycanın külək və günəş enerjisindən istifadə, istixana qazlarının atmosferə atılmasının azaldılması ilə bağlı geniş müzakirə aparıldı. Hesab edirəm ki, Məşvərət Şurası çərçivəsində çox yüksək səviyyədə iclasımız oldu.

Kadri SİMSON: "Azərbaycan bizim etibarlı və etimad göstərdiyimiz tərəfdaşımızdır"

Bizim Azərbaycanla enerji sahəsində əlaqələrimiz çox güclənir.



AZƏRTAC xəbər verir ki, bu barədə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simson fevralın 3-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və "Yaşıl Enerji "Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasının yekunlarına dair keçirilən brifinqdə bildirib.

K.Simson deyib: "Azərbaycan bizim etibarlı, eyni zamanda, etimad göstərdiyimiz tərəfdaşımızdır. Biz Azərbaycanda enerji sahəsinə sərmayələr yatırırıq. Enerji sabitliyinin təmin edilməsində "Cənub qaz dəhlizi"nin böyük rolu var".

O qeyd edib ki, bu gün keçirilən tədbir çərçivəsində Azərbaycanın külək və günəş enerjisindən istifadə, istixana qazlarının atmosferə atılmasının azaldılması ilə bağlı geniş müzakirə aparıldı. Hesab edirəm ki, Məşvərət Şurası çərçivəsində çox yüksək səviyyədə iclasımız oldu.

İtaliyanın enerji naziri: "Cənub qaz dəhlizi" Azərbaycanın irəli sürdüyü ən vacib beynəlxalq enerji layihəsidir"

İtaliya Azərbaycandan ixrac olunan təbii qazı Avropanın digər ölkələrinə ötürmək üçün bütün infrastruktura malikdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Cənub Qaz Dəhlizi "Məşvərət Şurasında çıxış edən İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Gilberto Piçetto Fratin deyib.

Bildirib ki, İtaliya ilə Azərbaycan arasında əlaqələr yüksələn xətlə inkişaf edir. İtaliya Azərbaycanın Avropaya ixrac etdiyi qazın həcmini artırmaq üçün trans-Adriatik (TAP) qaz kəmərinin imkanlarını artırmaq istiqamətində işləri davam etdirir. Azərbaycan böyük qaz ehtiyatına malikdir və 2027-ci ildə Avropaya qaz ixracının həcmini 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdıracaq. Buna görə də İtaliya yeni infrastruktur yaradır ki, gələcəkdə 30 milyard kubmetrə qədər qazı qəbul edib paylaya bilsin.

"Cənub qaz dəhlizi" Azərbaycanın irəli sürdüyü ən vacib beynəlxalq əhəmiyyətli enerji layihəsidir. İtaliya Azərbaycanı etibarlı tərəfdaş hesab edərək bu layihəni nəinki dəstəkləyib, eyni zamanda buna qoşularaq layihənin tərkib hissəsi olan TAP-ın reallaşmasında mühüm işlər görüb", - deyə nazir qeyd edib.

"Cənub qaz dəhlizi"nin Avropanın etibarlı enerji təchizatına verdiyi töhfəni yüksək qiymətləndiririk - BƏYANAT

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Avropa İttifaqının (Aİ) energetika məsələləri üzrə komissarı Kadri Simsonun mətbuat üçün birgə bəyanatı olub.

AZƏRTAC bəyanatı təqdim edir:

"Fevralın 3-də Bakı şəhərində keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində Nazirlərin 9-cu iclasında və "Yaşıl Enerji" Məşvərət Şurasının 1-ci iclasında Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında strateji enerji tərəfdaşlığı bir daha təsdiqləndi. Tərəfdaşlıq uzunmüddətli enerji təhlükəsizliyi, dayanıqlılıq, təchizatın diversifikasiyası və "yaşıl enerji"yə keçid gündəliyi üzrə əməkdaşlığın genişləndirilməsi kimi ümumi məqsədlərə xidmət edir.

İclasın həmsədrləri "Cənub qaz dəhlizi"nin tammiqyaslı istismarını və onun Azərbaycandan Avropaya etibarlı, rəqabətqabiliyyətli və sərfəli enerji təchizatının təmin edilməsinə verdiyi töhfəni yüksək qiymətləndirdiklərini bildiriblər.

Yunanıstan-Bolqarıstan İnterkonnektorunun uğurla istismara verilməsi Avropada tədarükün diversifikasiyasını daha da dəstəkləyəcək mühüm hadisələrdən biridir. Həmsədrlər "Cənub qaz dəhlizi"nin genişləndirilməsini dəstəklədiklərini bildirərək, bununla yeni enerji bazarları üçün potensial təchizat mənbəyinin yaranacağını bildiriblər. Həmçinin tədarük zəncirlərində metan emissiyalarının azaldılması üçün zəruri addımların atılmasının əhəmiyyəti vurğulanıb.

İlk dəfə olaraq keçirilən "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin iclası tərəfdaş ölkələr, maliyyə institutları və şirkətlərə yaşıl gündəlik üzrə əməkdaşlığın genişləndirilməsi ilə bağlı məhsuldar müzakirələrin aparılması üçün gözəl fürsət yaradır. Bu platforma "yaşıl enerji" üzrə beynəlxalq əlaqələrin yaradılmasına və Azərbaycanın Avropa bazarları üçün "yaşıl enerji"nin təchizatçısına çevrilməsinə töhfə verəcək.

Ötən ilin iyulun 18-də Bakı şəhərində imzalanmış "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" mövcud əməkdaşlığın genişləndirilməsi ilə yanaşı enerji keçidi, bərpaolunan enerji, enerji səmərəliliyi, bərpaolunan hidrogen sahələrində tərəfdaşlığın davamlı inkişafı üçün yeni imkanlar açacaq. Ötən ilin dekabrın 17-də Buxarest şəhərində imzalanmış "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in də böyük əhəmiyyətini qeyd edirik.

Həmsədrlər enerji təhlükəsizliyinin gücləndirilməsinə və iqlim dəyişikliklərinə qarşı birgə fəaliyyətə mühüm töhfələr verən səmərəli dialoqun davam etdirilməsi əzmində olduqlarını vurğulayıblar".

Rumıniyalı nazir: "Cənub qaz dəhlizi" özünün strateji əhəmiyyətini doğrultdu"

"Cənub qaz dəhlizi" özünün strateji əhəmiyyətini doğrultdu və Azərbaycan qazı Avropaya çatdırıldı.

AZƏRTAC xəbər verir ki, bu sözləri Rumıniyanın enerji naziri Virgil Daniel Popesku deyib. O bildirib ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu sübuta yetirib və buna görə də Rumıniya enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla yaxından əməkdaşlıq edir. Rumıniya Azərbaycan ilə strateji tərəfdaşlıq əlaqələrini artırmaq niyyətindədir.

"Ötən ilin iyununda Avropa İttifaqı ilə Azərbaycan arasında Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında strateji xarakter daşıyan memorandum imzalandı. Bu sənəd Azərbaycandan ixrac olunan qazın həcminin artırılmasını nəzərdə tutur. Buna əsasən Rumıniya təbii qaza artan tələbatını nəzərə alaraq Azərbaycandan ixrac olunan qazı almaqda maraqlıdır. Rumıniya Azərbaycandan daxil olan qazı digər iki Avropa ölkəsinə də ötürəcək və bunun üçün infrastruktura malikdir və trans-Balkan kəmərinin tikintisində böyük rol oynayıb", - deyə nazir qeyd edib.

Diqqətə çatdırıb ki, Rumıniya Azərbaycana etibar edərək addımlar atdı və doğrudan da, Azərbaycanın etibarlı tərəfdaşlığına əmin oldu.

Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycana rəsmi səfəri

Şəhidlərin xatirəsinə ehtiram

Rumıniya Prezidenti Klaus Yohannis fevralın 3-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Rumıniya Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Rumıniyanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.

İçərişəhərlə tanışlıq Rumıniya Prezidentində xoş təəssürat doğurub

Azərbaycanda rəsmi səfərdə olan Rumıniya Prezidenti Klaus Yohannis fevralın 3-də dünya mədəni irs abidələrindən olan İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, ali qonağın İçərişəhərə gəzintisi Qoşa Qala qapısı meydanı ilə tanışlıqdan başlayıb. Rumıniyanın dövlət başçısı qala divarlarının inşasının tarixi barədə məlumatlandırılıb.

Elektromobillə gəzinti zamanı ali qonağa UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

İçərişəhərdə gəzinti zamanı Rumıniya Prezidenti isti təndir çörəyinə qonaq edilib.

Sonra ali qonaq Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanış olub.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq Rumıniya Prezidenti Klaus Yohannisdə xoş təəssürat yaradıb.

Xalça Muzeyi ilə tanışlıq

Ölkəmizdə rəsmi səfərdə olan Rumıniya Prezidenti Klaus Yohannis fevralın 3-də Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, burada ali qonağa xalqımızın qədim xalçaçılıq sənəti, onun tarixi, adət-ənənəsi haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan xalçaçılıq sənətinin əsas bədii istiqamətlərini əks etdirən muzeyin kolleksiyası nadir gözəlliyin, istifadə olunan materialların, toxuma texnikasının, xalçalara məxsus zərif və dərin bədii xüsusiyyətlərin harmoniyasını nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, "qızıl fond"unu xovlu xalçalar təşkil edən muzeyin kolleksiyasında xovsuz xalçaların da nadir nümunələri saxlanılır. Burada Azərbaycanın 7 əsas xalçaçılıq məktəbinin - Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz məktəblərinin xalça nümunələri təqdim olunur. Xalçalar xalqın həyat və məişətini əks etdirən, insan, heyvan, quş, bitki ornamentləri ilə zəngin olan sənət əsərləridir.

Qeyd edilib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Daha sonra Rumıniya Prezidenti muzeydə yerləşən "Zərgərlik fondu" ilə tanış olub. Burada Azərbaycanın müxtəlif tarixi dövrlərinə aid qızıl və gümüş eksponatlar yer alır. Rumıniya Prezidenti Klaus Yohannis muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Maddi-mədəni irsimizlə yanaşı, muzey binasının orijinal görünüşü, qeyri-adi ekspozisiya zallarının quruluşu ali qonaqda xoş təəssürat yaradıb.

Səfər başa çatdı



Rumıniya Prezidenti Klaus Yohannisin Azərbaycan Respublikasına rəsmi səfəri fevralın 3-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın və Rumıniyanın Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Rumıniya Prezidenti Klaus Yohannisi hava limanında Baş nazirin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola saldılar.

Mediada süni ajiotaj yaradanların məqsədi nədir

Təkmilləşdirilmiş yeni qanunvericilik reket mətbuatının və sui-istifadəçilərin bədnam fəaliyyətinin qarşısını alır

"Media haqqında" qanun 2021-ci ilin dekabrında qəbul olunsa da, aktuallığını itirməyən, ən çox "müzakirə" olunan sənədlərdəndir. Bəs bu qanunu bu qədər müzakirə mövzusuna çevirən səbəb nədir? Və ya qanundan narazılar kimlərdir? Onlar nəyə etiraz edirlər və ya belə təkmil qanuna niyə etiraz edirlər?

Qanunun tələblərinə uyğun olaraq, ötən ilin oktyabr ayından etibarən media subyektlərinin və jurnalistlərin 6 ay müddətinə reyesterdən keçməsi başlanıb. İndiyə kimi reyesterdən keçmək üçün Medianın İnkişafı Agentliyinə 185 media subyekti və 186 jurnalist elektron qaydada müraciət edib və qanuna uyğun olaraq müsbət cavab alıblar. Müraciət edib qeydiyyatdan keçməyən media subyektinin rəhbərləri və jurnalistlər ilə fərdi qaydada söhbətlər aparılıb, qanunun tələbləri bir daha onlara izah edilib.

Nəzərə alsaq ki, bu gün ölkəmizdə 5 mindən çox mətbuat orqanı, qəzet və jurnal rəsmi olaraq Ədliyyə Nazirliyində qeydiyyatdan keçib, onda birmənalı olaraq deyə bilərik ki, reyesterdən keçmək üçün müraciət edən media subyektlərinin və jurnalistlərin sayı nəinki azdır, hətta bu, olduqca çox cüzi göstəricidir. Qeyd etməliyik ki, Ədliyyə Nazirliyinin qeydə aldığı əsasən çap mediasıdır. Elektron, onlayn medianın böyük əksəriyyətinin rəsmi qeydiyyatı yoxdur və qanunla onların qeydiyyatdan keçməsi məcburi deyil, məlumat xarakterlidir.

Olduqca maraqlı və aktual sual yaranır; ölkəmizdə 5 mindən çox qəzet və jurnal və onun yarısı qədər də onlayn media fəaliyyət göstərirsə, bəs reyestrdən keçmək üçün müraciət edən media subyektlərinin və jurnalistlərin sayı niyə azdır? Fəaliyyət göstərən media subyektlərinin və jurnalistlərin reyesterdən keçməsinə mane olan səbəb nədir? İlk növbədə qeyd edək ki, jurnalistlərin reyestrdə qeydiyyatı fərdidir, kollektiv deyildir. Yəni reyestrdə qeydə alınmış mətbuat subyektinin işçiləri mütləqdir ki, qeydiyyatdan keçmək üçün elektron formada, fərdi qaydada müraciət etsinlər. İkincisi, heç kimə sirr deyil ki, qeydiyyatdan keçən qəzetlərin əksəriyyəti heç bir gün də fəaliyyət göstərməyib. Həmin "mətbuat orqanları" təsisçilərinə vəsiqə düzəldib ciblərində gəzdirmək üçün lazım olub. Bəzi qəzetlər isə çox nadir hallarda çap olunsalar da, "kütləvi informasiya" vasitəsi statusu ala bilməyiblər. Adətən, təsisçidən və baş redaktordan, "kollektivi" cəmi bir nəfərdən ibarət olan belə qəzetlər qazanc mənbəyi kimi yaradılıb. Onlar reketçiliyi, şantajı özlərinin məşğuliyyət formasına çevirərək mətbuatı, vicdanlı jurnalistləri gözdən salmaqla məşğul olublar. Yeri gəlmişkən, elə bu gün sosial mediada, bəzi saytlarda "müzakirə açıb" "Media haqqında" qanunu topa tutanlar da həmin "jurnalist"lərdir. Reallıqda ölkədə özünə hörmət edən, az-çox tanınan və konkret oxucusu olan bütün ciddi media qurumlarının sayı heç də 190-ı ötmür. Ondan da 185-i hələlik qeydə alınıb. Maraqlıdır, texnologiya əsrində zəhmət çəkib heç bir yerə getmədən, yəni çox asanlıqla reallaşdırılması mümkün olan bir işin arxasınca bəziləri niyə getmək istəmirlər. Yoxsa "nüfuzlu" media orqanlarına reyesterdə qeydiyyatdan keçmək sərf etmir?

Nəzərə alsaq ki, həmin narazıların, "tanınmışların" əksəriyyəti hələ də şəxsi minik avtomobillərinə bir neçə yerdən PRESS yazıb yapışdıranlardır. Hər şeydən xeyir götürməyi bacaran "media kapitanları" görəsən əllərinə düşən bu fürsətdən niyə istifadə etməyə həvəsli deyillər? Amma bunun başqa bir tərəfi var. Məsələ burasındadır ki, "media orqanlarında" özlərindən başqa heç kim olmayan və yaxud cəmi bir-iki nəfərdən ibarət olan "Media subyektləri" qanunla reyesterdən keçə bilmir. Qanunla mətbuat orqanı olmaqla yazar olmaq tamam başqa məsələdir.

Konstitusiyanın 50-ci maddəsində göstərildiyi kimi, "Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı var. Kütləvi informasiyanın azadlığına təminat verilir. Kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağandır. Hər kəsin kütləvi informasiya vasitələrində dərc edilən və onun hüquqlarını pozan və ya mənafelərinə xələl gətirən məlumatı təkzib etmək və ya ona cavab vermək hüququna təminat verilir". Deməli, Konstitusiya ilə heç kimə yazmaq, yaradıcılıqla məşğul olmaq, öz fikirini yazılı və ya səsli ifadə etmək qadağan olmadığı kimi, kütləvi informasiya vasitəsi yaratmaq və KİV kimi qəbul olunmaq qadağan edilmir. Kim bunu etmək istəyib edə bilmirsə, günahı özündə axtarsın. Qanunun birini əldə bayraq edib, digərini pozmaq olmaz. Anlamaq lazımdır ki, media orqanları, kütləvi informasiya vasitələri orada çalışanların iş yerləridir. Orada çalışanlar, çalışdırılanlar əməklərinə görə məvacib alır, eyni zamanda vergi ödəyir, vətəndaşı olduğu dövlətin qanunlarına əməl edir. Bunlar yoxdursa, "həvəskar" kimi fəaliyyət göstərənlərə qanunla heç bir qadağa qoyulmur, getsinlər "fəaliyyətlərini" göstərsinlər. Amma avtomobillərinə yapışdırdıqları PRESS-in qarşısına bir "həvəskar" sözünü da əlavə etsinlər.

Həvəskar demişkən, "Media haqqında" qanunu tənqid edənlərin əksəriyyəti elə həvəskar "tənqidçi"lər, hər şeyə "qara" deməyə vərdiş edənlərdir. Sanki bu insanlar hər şeyi gözdən salmaq üçün yaranıblar. Belələrinin bir adı var: hər yerdə qara axtarıb, qarayaxanlar.

Elşən QƏNİYEV,
"Azərbaycan"

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 noyabr (Cümə axşamı günü) tarixli 46-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Pəncşənbə, 14 səfərülmüzəffər sənə 1337. 21 təşrini-sani sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

QİSMİ-RƏSMİ
[RƏSMİ HİSSƏ]

Maliyyə Nəzarətindən

1. Maliyyə Nəzarəti hal-hazırda yeni kağız pulu buraxma fikrində olaraq lazım olan əşyanı: kağızları, rəngləri və ilx. hazır etməkdədir. Lakin bu əşyanı tez zamanda hazır etmək mümkün olmamağı nəzərə alıb, Hökumət böylə qərar vermiş ki, Bakı Bələdiyyə İdarəsi son zaman buraxdığı bonolardan rəngin və kağızın dəyişdirib, çap etdirsin. Binaileyh [ona görə], bu az zamanda çap olacaq kağız paralar (10, 25, 50 rublə fiyatı) daha gözəl çap olunmaqdan dolayı rəngi dəxi açıq olacaq və surətləri hökumət banklarına və xəzinələrinə öz vaxtında göndəriləcəkdir.

Maliyyə naziri:
Məhəmməd Həsən Hacınski

2. Son zamanlar bəzi idarələr və şəxslər köhnəlmiş və dağılmış Bakı bonolarını qəbul etmədiklərini nəzərə alıb, Maliyyə Nəzarəti ümuma elan edir ki, bir tərəfdən qanunumuz və qeyri tərəfdən Bakı Bələdiyyə İdarəsi 1918 sənədə yanvar ayının 9-unda təsdiqlədiyi qərar mövcibincə [qərara əsasən] ancaq o Bakı bonoları qəbul edilməz, hansıları ki, dörddə bir hissələrini qeyb və yainki imzaları və nömrələri silinmiş olsun. İşbunu Maliyyə Nəzarəti elan edərək əlavə edir ki, imzaları və nömrələri bəlli və parçaları üstündə olan Bakı bonolarını qəbul etməyən idarələr və əşxas qanunun müqabilində [qarşısında] məsul olacaqlardır.

Maliyyə naziri:
Məhəmməd Həsən Hacınski

Maliyyə Nəzarətində
15 təşrini-sani
Hökumətin 15 təşrini-sani tarixli qərardadı mövcibincə, mən xəstə olduğumdan dolayı, Maliyyə Nəzarəti ümurunu [işlərini] Dövlət Kontrolu Əbdüləli bəy Əmircanova müvəqqətən tərk edirəm.

Maliyyə naziri:
Məhəmməd Həsən bəy Hacınski

17 təşrini-sani [noyabr]
Xəstəlikdən səhhətyab olduğuma [sağaldığıma] görə mən bu gündən yenə Maliyyə Nəzarəti ümurunu [işlərini] kəndi əlimə aldım.

Maliyyə naziri:
Məhəmməd Həsən bəy Hacınski

Əmr nömrə 13
Nuxu xəzinəsinə mühasibəçi vəzifəsilə müvəqqətən buraxılmış olan Səməd bəy Hacı Ağabəy oğlu Şahqulubəyov ağustos ayının birindən, Zaqatala xəzinəsinə həmin vəzifə ilə buraxılmış olan Pyotr Yakimoviç eylülün [sentyabrın] 12-sindən həmin vəzifəyə təyin edilirlər.

Əmr nömrə14
Vasili Butsenko ilə Mixail Atamaşkin Ağdam xəzinəsinə gələn gündən dəftərxana qulluqçuları vəzifəsini müvəqqətən ifaya buraxılırlar.

Maliyyə Nəzarəti Şurasının üzvü: Aqurov

Əmr nömrə 15
14 təşrini-sani 1334
Maliyyə Nəzarətinin dəftərxana qulluqçularından Həsənağa Yusifxanov ilə Aleksandr Lixarev qulluğa gəlmədiklərinə görə, bu sənəsi təşrini-saninin 14-ündən qulluqdan kənar edilirlər.
Bu sənəsi təşrini-saninin 14-ündən Xəlil bəy Sultanov ilə Fyodor Livanov Maliyyə Nəzarəti dəftərxanasında dəftərxana qulluqçusu təyin edilirlər.
Bu sənəsi təşrini-saninin 14-ündən Yekaterina Sokolovskaya Maliyyə Nəzarəti dəftərxanasında Təsərrüfat (Xozyaystvennı) şöbəsinə müdirə təyin edilir.

Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə Nəzarətindən [Sosial Təminat Nazirliyindən]
Nömrə 1, 15 təşrini-sani 334
Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin baş mürəxxəsliyi [nümayəndəliyi] və ona aid bütün şöbələri təsviyə [ləğv] edilir.
Nömrə 2, 15 təşrini-sani
Şəhərlər İttifaqının sabiq Bakı komitəsinin sədri Fyodor Yefimoviç Kotılevski Ümuri-Xeyriyyə Nəzarətinin dəftərxana müdiri təyin edilir.
Nömrə 3, 15 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsindəki sabiq müfəttişi Ələsgər Axundov işbu Nəzarətin Şamaxı nahiyəsində 1 təşrini-sani 334-dən nahiyə naziri [müfəttişi] təyin edilir.
Nömrə 4, 16 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qazax qəzasında olan sabiq mürəxxəs [nümayəndə] Q. Borsuklinski Şamaxı nahiyəsində 1 təşrini-sanidən nahiyə naziri [müfəttişi] müavini təyin edilir.
Nömrə 5, 16 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsində sabiq mühasib müavini olan Yusif Xələfzadə Nəzarətin hesabdar vəzifəsini 1 təşrini-sanidən ifa etməyə təyin edilir.
Nömrə 9, 17 təşrini-sani
İsmayıl Haqqı Veysov Ümuri-Xeyriyyə Nəzarətinin dəftərxanasında 14 təşrini-sanidən dəftərdar təyin edilir.
Nömrə 11, 17 təşrini-sani
Ümuri-Xeyriyyə Nəzarətinin Qaçqınlar şöbəsində mühasibəçi İsfəndiyar Hacıyev verdiyi istidaya rəğmən [ərizə əsasında] vəzifəsindən azad edilib, Dövlət Kontrol Nəzarətinə keçirilir.
Nömrə 13, 18 təşrini-sani
Həsən Fəttahov Dövlət Xeyriyyə işlərinin Gəncə nahiyəsində [Gəncə nahiyəsi Sosial təminat idarəsində] 1 təşrini-sanidən nahiyə müfəttişi təyin edilir.

Ümuri-Xeyriyyə naziri: Rəfiyev

TELEQRAF XƏBƏRLƏRİ
(Royter ajansı məlumatı)

* Bakıdakı ingilis komandanlığının aldığı məlumata nəzərən, Almaniyada olan əsgəri əsirlərə ənqərib [yaxın] bir zamanda vətənlərinə övdət etməyə [qayıtmağa] imkan veriləcəkdir.

* Belçika Parlamanı, ehtimal ki, 21 təşrini-sanidə Brüksel şəhərində dəvət ediləcəkdir.

* Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə görə, Hollandiyada əhval bir az yaxşılaşmışdır. Amsterdam şəhərində iğtişaş vaqe olmuşdur, fəqət şimdi vəziyyət müstəhkəmdir [sabitdir]. Əhali kraliçanı təbrik etmişdir.

* Berlindəki Nümayəndələr Şurası təhtəlbəhr əmələlərinə [sualtı qayıqların heyətlərinə] müraciətlə, İngiltərəyə gedəcək sualtı qayıqlardan kənar olmamağını [sualtı qayıqları tərk etməməklərini] təmənna etmişdir. Bununla bərabər, ingilis sularında toplaşan gəmilərin əmələsinin bir fəlakətə uğramayacağını təmin və onlara yaxşı mükafat verəcəyini vəd etmişdir.

* Fransa məmləkəti düşməndən təmizlənmişdir.

* Fransız və Amerika ordusu Mets tabyalarının [istehkamlarının] birinci xətlərinə yetişmişlər və bazar ertəsi Metsin işğalı gözətlənir.

* İngilis və fransız hökumətləri Parislə London miyanında [arasında] gündəlik hava müxabiratı [rabitəsi] düzəltmişlərdir. Bu xidməti Almaniyanı havadan bombardman etmək üçün işlədilmiş tünd gedici [sürətli] aparatlar ifa edəcəklərdir.

Mərkəzi Şura Hökumətinin məlumatı xəbərləri
(Gürcü Teleqraf Ajansı vasitəsilə alınmışdır)
- Slavnoye istasyonu, 14 təşrini-sani
Slavnoye dairəsində alman qoşunları inqilaba dair nəşr edilmiş kitabları böyük iştiyaqla [həvəslə] alırlar.
Alman qoşunları həcz [müsadirə] edilmiş ələfiyyatla [yemlərlə] heyvanatı əhaliyə buraxıb, bitərəf küttədən [ərazidən] də 30 çağrım Borisovka köyü tərəfinə çəkilmişlər.
- Moqilyov, 14 təşrini-sani
Alman əsgərləri Daşkovkanı buraxıb getdilər. Yarın Bıxov ilə Roqaçyovu təxliyə edib, Berlinə əzimət edirlər [gedirlər]. Gedənlərdən çoxu silah və təchizatını buraxırlar.
- Kiyev, 14 təşrini-sani
Ukraynada olan alman qoşunları arasında bir çox şuralar təşkil edilmişdir. Odessada bir qitə şurası, bir übur edən [keçən, keçib gedən] əsgər şurası vardır. Şuralar rəyasətləri fəqət [sadəcə, təkcə] əsgərlərdən ibarətdir. Yekaterinoslav şəhərində, Xarkovda və Poltavada əsgəri qitələr [hərbi hissələr] şuralarına seçkilər davam edir. Şuralı [Sovet] Rusiyanın bütün hüdudunda hər yerdə seçkilər başlanmışdır. Alman qoşunları olan mənzillərin həpsinin üzərində al bayraqlar təməvvüc edir [dalğalanır].
- Kiyev, 14 təşrini-sani
Soqaqlarda toplanmaq, örtülü mənzillərdə ictimalar [yığıncaqlar] və hər növ nümayişkaranə hərəkətlər icbari qərardad mövcibincə [qərardada əsasən] yasaq elan edilmişdir. Buna riayət edilmədiyi təqdirdə silah qullanmaqla qərardad əhalini təhdid edir.
- Təşrini-saninin 15-ində Moskvadan xəbər verirlər ki, Odessadan verilən xəbərlərə görə Odessa ilə Sevastopol arasında ingilis sualtı qayıqları zahir olub, alman bayrağı olan gəmiləri partlatdıqdan sonra gəmi komandasını kənara çıxarırlar.
- Təşrini-saninin 13-ündə vaqe olan Finlandiya iclasında prins Fridrix Karlın Finlandiya tac-taxtının ona təklif edilməsi cavabı elan edilmişdir. Prins ona göstərilən etibar və etimaddan xeyli razı qalmışdır. Prins Finlandiya camaatı üçün işləməyə hazır olduğunu etirafla, indiki halda onun Finlandiya karolu [kralı] intixab edilməsinin [seçilməsinin] məmləkət istiqlaliyyətinə böyük bir mümaniət [maneə] olacağını söyləmişdir. İndiyə qədər Finlandiya istiqlaliyyətini etiraf [qəbul] etməyən hökumətlərlə gözəl münasibət saxlamalıdır. Şərait dəyişildiyi zaman prins Karl taxt-tacını qəbul etməklə, Finlandiya camaatı uğrunda işləməyə hazır olduğunu xəbər vermişdir. Hal-hazırda ancaq istiqlaliyyət təmin edilməsi lazımdır.
- Rostov (Don üstü) [Rostov-na-Donu]
12 təşrini-sani. İnqilabın bir sənəliyi bayramı ərəfəsi günü şəhərin fəhlə dairələri zabit qaraqol qitələri ilə işğal edilmişdi. Qara Ataman alayı 30 gün ərzində fəhlə evlərini və zavodları gəzirdi. Şəhərdə zirehli avtomobillər gərdiş edirdi. Şəhərin küçələrində elan və intibahnamələr [təbliğat vərəqələri] yapışdırıldığına binaən [görə], fəhlə dairəsinin bir çox yerlərində təftiş və tövqiflər [həbslər] davam edirdi.
Don Hökuməti Almaniyadakı inqilab haqqında [və] Vilhelmin xəl'i [hakimiyyətdən kənarlaşdırılması] xüsusunda məlumat nəşrini qadağan etmişdir.
Alman komandanlığı inqilab xüsusundakı xəbərləri təkzib etmək üçün xüsusi elanlar nəşr edir. Lakin Almaniya [və] Avstriyadan övdət edən [qayıdan] əsgəri əsirlərin hekayələrindən, inqilab haqqında əhali çox şeylər öyrənmişdir. Alman qoşunları onları vətənə buraxmamağa qarşı izhari-nifrət edirlər [narazılıqlarını bildirirlər]. Krasnovun əlbisə həczi [müsadirəsi] haqqında verdiyi əmrə münasib, köylülər tələb edirlər ki, burjuaziyanın evlərini təftiş etsinlər. Cəza dəstələri amansız bir surətdə həczə girişmişlər.
- Təşrini-saninin 13-ündə Berlindən xəbər verirlər ki, Camaat Vəkilləri Şurası [Xalq Deputatları Soveti] hökumət işlərini bu qərar üzrə təqsim etmişdir [bölmüşdür]: Ebert – daxilə və hərbiyyə işlərinə; Haaze – xariciyyə və müstəmləkat [müstəmləkələr] işlərinə; Şeydeman – maliyyə; Dittman – tərxisi-əsgər [ordunun tərxis edilməsi], səhhəti-ümumiyyəyə [xalq səhiyyəsi] və ədliyyə işlərinə; Landsberq – mətbuat və məlumat işlərinə təyin edilmişlərdir.
Almaniya təzə hökumətinin məramnaməsi: İdareyi-əsgəriyyənin [hərbi idarənin] götürülməsi, ittifaqlar və şuralar azadlığı, sansürün [senzuranın] ləğvi, hürriyyəti-ədyan [din azadlığı] və siyasi müttəhimlərin əfvi-ümumisindən ibarətdir.

ALMANİYA İNQİLABI

Berlin – Bitərəf Sosial-Demokrat Firqəsi alman fəhlələrinə xitabən bir müraciətnamə nəşr etmişdir. Bu müraciətnamədə yazılmış ki:

"Militarizm üsuluna öylə zərbə endirilmişdir ki, bir daha kəndisini toplayammayacaqdır. Bizdə olan imperializm bərbad edildi. Demokratiya və sosializm qayəsi qalibanə bir surətdə ilərləməkdədir. Bitərəf Sosial-Demokratiya Firqəsi əzaldə bu imperializm fəlakətini görürdü. Fəqət [yalnız, təkcə] bizim firqə Bükreş [Buxarest] və Brest müahidənamələrinin [müqavilələrinin] qarşısına dururdu. İşbu müahidənaməlri başqa firqələr də artıq müdafiəyə qalxışmayırlar. Beynəlmiləl sosializm məsləkinə daima iman edən biz bitəraflər hər bir zaman, har bir millətin azilməsiylə və ona qarşı göstərilən zülmlərlə mübarizə etməkdə idik. Bu vəsilələr [səbəblər] alman milliyyətini təzyiq altına almaq istəyən hər bir təşəbbüsata qarşı durmağa bizə əxlaqi bir haqq verir.

Sosial-Demokratiya Firqəsi burjuaziya cəmiyyətinə müavinət [yardım] etmək üçün hökumət başına dəvət edilmişdir. İmperializm bərbad olduqdan sonra bu firqə millət müdafiəsini əlinə alıb burjuaziya üsulunu müdafiə etmək istədi. Hökumətə daxil olduqda, onun tərəfindən nə siyasi müqəssirlərin əfvi, nə idareyi-əsgəriyyənin [hərbi idarənin] götürülməsi, nə də sosializmə və siyasətə mütabiq [uyğun] tələblər meydana gəlmədi. Hətta əski burjua hökuməti tez bir zamanda sabiq Rusiyanın topraqlarından Baltik civarını, Finlandiya, Lehistanı [Polşanı], Ukraynanı, habelə Rumıniya ilə Bolqariyanı təxliyə etməli idi. Sülh müahidənamələrini demokratik prinsiplərinə müvafiq olmaq üçün yenidən nəzərdən keçirmək, əsgəri və mülki idarələrinə mənsub olan siyasi müqəssirləri əfv etmək, idareyi-əsgəriyyənin qaldırılması, hürriyyəti-ictima və ittifaq [toplaşma və təşkilatlanma azadlığı], hürriyyəti-kəlam [söz azadlığı], nisbi seçki üsulu, bu üsulun qadınlara da haqqi-intixab [seçmə haqqı] verməsi, məsai mükəlləfiyyəti [əmək öhdəliyi] qanununun təsviyəsi [ləğvi], səkkiz saatlıq iş günü elanı kimi əsasları qəbul etməklə bərabər, qanuni-əsasinin [konstitusiyanın] təğyiratına [dəyişdirilməsinə] girişməliydi ki, həqiqi bir hökumət meydana gətirəydi. Biz beynəlmiləl sosialist olmaq həsəbi [səbəbi] ilə daha çox tələblər təklif ediriz. Bizlər ictimai bir cümhuriyyət istəyiriz ki, bu növlə müharibələrin təxribatından cahan xilas edilsin. Dərin və geniş təbəddülat [dəyişiklik] hamı dövlətlərdə icra olunmaqdadır. Böylə təğyirat və təbəddülat [yenilik və dəyişiklik] zamanı idarəçilik rolunu öhdəsinə götürmək beynəlmiləl "proletari"nin (füqərayi-kasibəsinin) tarixi bir vəzifəsidir. Hökumət sosializmasının üsulları fəhlə sinfinin zəif işləməsinə və burjuaziya cəmiyyətinin qüvvətlənməsinə fayda verəcəkdir.

Füqərayi-kasibənin [proletariatın] ittihadı [birləşməsi] mərkəz, Xalq Tərəqqipərvəran Firqəsi, milli hürfikirlərlə hökumət sosialistlərinin bayraqları altında başa gəlməz. Alman füqərayi-kasibəsi Bitərəf Sosial-Demokrat və beynəlmiləl sosializm bayrağı altında olmaq onun üçün bir şüar olmalıdır. Fəqət [ancaq] bununla füqərayi-kasibə və bəşəriyyət üçün parlaq bir istiqbal [gələcək] olacaqdır. Fəqət bununla sülh təmin olar."

Bu müraciətnamə, ətrafına: *"Toplaşınız! Sıralarınızı doldurunuz! Bəşəriyyətin ən uca bir xilasına nail olmaq lazımdır!"* sözləri ilə xitampəzir olur [başa çatır].

ALMANİYADA

- Sabiq Almaniya imperatorluğu, Alman Hökumətləri İttifaqına mübəddəl olmuşdur [çevrilmişdir]. Avstriyanın almanlarla məskun hissəsi də məzkur [adı çəkilən] ittifaqa mülhəq olmuşdur [birləşdirilmişdir].

- Almaniya Hökuməti Məclisi-Müəssisan [Təsisçilər Məclisi] dəvət edilməsini elan etmişdir. Məclisi-Müəssisan mümkün olduqca ümumi konqre dəvətinə qədər tez bir müddət ərzində dəvət ediləcəkdir.

- Alınan xəbərlərə görə, Almaniyada inqilab hərəkəti asayiş surətini alıb, sakitliklə cərəyan etməkdədir. Berlin Fəhlə və Saldat Şurasına Berlində Qırmızı qvardiya təşkil edilməsi təklifi daxil edilmişdir. Hökumət ixtiyarında kifayət qədəri əsgəri qüvvə olduğundan, Fəhlə və Saldat Şurası ilə Hökumət bu təklifi rədd etmişlərdir.

QƏZETƏLƏRDƏN

- Çexslav sosialistləri çexslavların Rusiya Vətəndaş müharibəsində iştirak etmələri münasibətilə rus sosialistlərinə müraciətən xəbər vermişdir ki, əks-inqilab məqsədi üçün onların ordusundan istifadə etmək olmaz. Çexslavlar özlərini Rusiya Qoşma [Federativ] Demokrat Cümhuriyyəti tərəfdarı elan edirlər.

- Qəzetələrin verdikləri xəbərə görə, Yaponiyanın təzə Xariciyyə naziri izhar etmişdir ki, Yaponiya Hökuməti sülh əqd edildikdən [bağlandıqdan] sonra Müttəfiq hökumətlərlə bərabər Rusiyada qanun və asayişi bərpa etməyə iştirak edəcəkdir.

- "Mançester" qəzetəsi bolşeviklərə mübarizə başlanacağı haqqında bir məqalə yazıb, Mərkəzi hökumətlərlə mütarikə [atəşkəs] əqdindən [imzalanmasından] sonra Müttəfiq dövlətlərin bolşeviklərlə mübarizə planlarının nədən ibarət olduğunu sual etmişdir.

- Çexslavların azad edilməsi üçün Amerikanın çıxış yapması çoxdan vücuda gəlmişdir. Buna görə də şərq cəbhəsində Almaniya əleyhinə döndürülmüş olan cəbhə əsassız olar. Hərgah bundan belə ingilis millətinə Rusiyada öz qanını tökmək lazım gəlsə, o zaman ingilis milləti bunun səbəbini bilməlidir.

Zaqafqaziya bonları
Dağıstanlılar Cümhuri İttifaqının [Birləşmiş Dağlılar İttifaqının] Maliyyə naziri Gürcüstan Xariciyyə nazirinə müraciət etdiyi bəyannaməsində özünün Gürcüstan hökumət nümayəndələri [ilə] müzakirədə bulunduğuna və bu məsələ haqqında Azərbaycan Hökumətinin razılığına istinadən xəbər verir ki, Dağıstan Cümhuriyyəti Gürcüstan və Azərbaycan hökumətləri üçün ümumi əsas üzrə Zaqafqaziya Komissarlığı tərəfindən pul (bon) buraxılmasında iştirak etməyi qərara alıb, Dağıstan Cümhuriyyətinin bu işdə iştirak etməsinə müavinət [köməklik] göstərilməsini xahiş edir.

Vilsonun Almaniya haqqında bəyanatı
Vilson Konqre iclasında bəyan etmişdir ki, Almaniyanın iqtisad və ərzaqca əhvalının yüngülləşdirilməsindən ötrü hər cür tədbirlər ittixaz edəcəkdir [görəcəkdir].
- Mütarikə mövcibincə [atəşkəsə əsasən] gəmilərin Qara dənizdə azad seyr etmələrini təmindən ötrü Sevastopolda olan Alman Komandanlığı ilə İstanbulda olan İngiltərə Komandanlığı arasında müzakirat [danışıqlar] davam edir.
- Rumıniyanın Almaniyaya müharibə elan etməsi doğru olmuşdur. Bu müharibə elanı Almaniyanın Rumıniyada olan ləvazimat və mühimmati-əsgəriyyəsini [hərbi ləvazimatını] zəbt etmək qəsdindən ibarətdir.
- Petroqraddan xəbər verirlər ki, Kronştadtda olan ikinci donanma matrosları üsyan bayrağı qaldıraraq zabitləri və burjuaları həbsdən azad etməyə çalışmışlardır. Latış nişançı [atıcı] bölüyü əsgərləri ilə atışdıqdan sonra matroslar geri çəkilmişlərdir.
- Ümumrusiya İcra Komitəsi, Şuralar İctimasının [Sovetlər Qurultayının] arzusuna görə Almaniyada Əmələ və Saldat Vəkilləri Şurası [Fəhlə və Əsgər Deputatları Soveti] Hökuməti üçün mübarizə edən füqərayi-kasibə [proletariat] ixtiyarına hər biri 25 vaqondan ibarət olmaq üzrə iki qatar taxıl göndərilməsini əmr etmişdir. Bu taxıl göndərildikdən sonra Ümumrusiya Mərkəzi İcra Komitəsi Almaniyada mübarizədə bulunan fəhlə və saldatlara müavinətdən [yardımdan] ötrü xüsusi bir "fond" vücuda gətirilməsini qərara almışdır.
- Rotterdamda böyük nümayişlər vaqe olmuşdur. Bu nümayişlərdə Hollandiya saldatları iştirak etmişlərdir. Nümayişçilər sosialist nəğmələri oxumaqla küçələri gəzmişlərdir. Komendantın yaşadığı evin şüşələri sındırılmışdır.

İSTANBUL SƏYAHƏTİ HAQQINDA RƏSULZADƏ MƏHƏMMƏD ƏMİN BƏYİN KONFERANSI

(keçən nömrədən mabəd)

Şimdi Türkiyədə bu gün ərz etdiyim yeni cərəyanlar başlamış. Bu cərəyanı, ictimaiyyatda da müşahidə etmək olar. Bunun təsiri bilxassə [xüsusilə] həyati-nisvana [qadınların həyatına], onların tərəqqisinə icrayi-nüfuz etmişdir [təsir göstərmişdir].

Qadınlar da erkəklər kimi həyati-ictimaiyyənin [ictimai həyatın] hər növünə iştirak edirlər. Parça toxuyan, ayaqqabı, tüfəng və digər əslihə [silah] əməliyyatxanalarında (masterskoyla-rında) qadınlar da çalışır. Mənsucat [toxuma, trikotaj] fabrikasında yeddi min əmələdən [fəhlədən] beş mini qadındır. Texnik əməliyyatxanalarda dəxi çox ağır olmayan işlər qadınların və qız çocuqlarınındır.

Mərkəzi-islamı – İstanbul – səyahət etdiyim sırada fabrika və zavodlarla bir çox digər müəssisələri gəzdik. Fabrika qapısından içəri girmək istədikdə, qara bir yaylıqla başını bağlamış, qara əlbisə geymiş bir məmurə bizi salamladı. İçəri girdikdə hər yerdə erkəklərlə bərabər məmurələr [qadın işçilər] də gözə çarpırdı. Hətta on iki yaşlı qızlar da dəstgahlarda [dəzgahlarda] işləyirdi. Böyük bir şöbəyə müdirlə bərabər girdiyimiz əsnasında bizim qafqaziyalı olduğumuzu duyarduymaz hamı bir ağızdan Qafqaz marşını oxudular.

Bu saat İstanbulda nerəyə baxarsaq, məmurlar miyanında [arasında] əksəri qadınlardır. Posta-teleqraf və digər hökumət müəssisə və idarələrinin həpsində məmurələr çalışır. Bilümum [bütün; ümumiyyətlə] müdirlər də qadınların erkəklərdən daha qeyrətli [çalışqan] olduğunu və onların kəndi işlərində göstərdiyi səbatı [dözümlülüyü] etiraf edir. Kəndiləri tərbiyə sahibi, oxur-bilər, içlərində ədibə və şairə vardır.

Bu gün Türkiyədə bir çox dul qadınlar olduğu kimi, saysız yetim çocuqlar da küçələrdə mövcuddur. Bunları tərbiyə etmək üçün dövlət tərəfindən darüləcəzələr [kimsəsizlər evi] təsis edilmiş ki, burada öksüzlər [yetimlər] pənah bulurlar. Altıncı Sultan Məhəmməd xanın qılınc quşanması zamanı, böylə çocuqlar[ın] təmiz pak əlbisələrdə kəndi müəllimələri ilə gəlib səf bağlamaları gözəl bir mənzərə təşkil edirdi.

Qadınlar özləri cəmiyyətlər təsis edir. Özlərinə məxsus qəzetələri var. Ali məktəblərdə oxumaq üçün onlara haqq verilmişdir.

Türkiyə qadınları miyanında [arasında] bir çox alimə və fazilələr [fəzilət sahibləri] vardır ki, Hökumət bunların fikri-tənqidinə [tənqidi fikrinə], təsəvvürat [düşüncələrinə; görüşlərinə], mülahizələrinə hörmət edir. Məsələn, təkcə Türkiyədə deyil, bütün Avropada kəsbişöhrət etmiş [tanınmış] Xalidə Ədibə xanım əsərləri, məqalələri böyük bir diqqətlə oxunur. Hangi bir firqə hökumət başına keçərsə, xanım əfəndinin fikrindən istifadə edir. Hökuməti və onun əhval və hərəkətini tənqid edən digərlərini sürgün etdikləri halda, ona toxunmaz. Tələt paşa kabinəsi dövründə hökuməti tənqidə qalxışan yeganə şəxs var idisə, o da Xalidə Ədibə xanım oldu.

Qadınlar cəmiyyətlərində ədəbi mütaliələr olduğu kimi, onların konfransları da olur. Leksiyaları ilə həyati-ictimaiyyədə böyük təcəlliyata səbəb olmuşlardır.

İştə, görürsünüz ki, bir tərəfdən türklərdə elm, fənn, ədəbiyyat, ümumiyyətlə xalq malı olmaq istəyir, xalqa yaxlaşır. Digər tərəfdən də xalqın anaları, onun mürəbbiyələri [tərbiyəçiləri] olan qadınları tərəqqi və təali [yüksəliş] yolunda yüksək addımlar atır. Artıq yarımçılıq həyat ortadan qaldırılır.

Ədəbiyyatda olduğu kimi, tərzi-memaridən də (arxitektura) əski Bizans, italyan, ərəb ilə qərb-Avropa üsulları əvəzində yeni türk üsulu imarətlər bina edilir. Bunların həpsi islamın mərkəzi İstanbulda yeni bir həyatın üfüqlərdən ərzi-didar etməsini [simasını göstərməsini] göstərməyirmi?

Bizi hər yerdə hüsntəvəccöhlə qəbul edilər. Yeni cərəyanı təmsil edən "Türk Ocağı" türk məmləkətlərinin harasından kim gələrsə, bu "ocaq" onu qəbul edəcəyi mühəqqəqdir [şübhəsizdir]. Biz də burada bir qardaşlıq hissi gördük. İstanbulun bütün məhfil [dairə; cəmiyyət], amil [işçi; məmur], siyasiyyunlarının [siyasətçilərinin] həpsini Azərbaycan məsələsində həmfikir gördük. Bu məsələ üstündə, bilxassə Bakı məsələsində, İstanbul mətbuatının almanlara qarşı etirazlarını, Azərbaycan istiqlaliyyətini müdafiə etməsini xatirdən çıxarmaq imkan xaricindədir. Heç bu günədək bu məsələdə olduğu kimi türkləri müttəhid [birgə] və müttəfiq görməmişdim.

Mütarikə [atəşkəs] haqqında bəyani-əfkar etmək [fikir bildirmək] və onun və xüsusən bu gün ümumun fikrini təsxir [zəbt] edən məsələlərin haqqında tədqiqatda bulunmaqdan illəri tənəffüs elan edilir.

(sonu var)

Məhəmməd Hənəfi

TÜRKİYƏDƏ QADINLIQ MƏSƏLƏSİ
"Feminizm"

2

(keçən nömrədən mabəd)

Dövri-Həmididə [Sultan Əbdülhəmid dövründə] Türkiyə ufaq bir kişvər [ölkə] deyildi. Olduqca böyük ölkənin sahibi-yeganəsi [yeganə sahibi], qahiri-qadiri [hər şeyə gücü çatan və istədiyini qəhr edə bilən] münhəsirən [ancaq, sadəcə] yədi-Həmidiyə [Əbdülhəmidin əlinə] və əvənəganına [yaxın dəstəsinə] mövdu idi [tapşırılmışdı]. Zira idareyi-mülükanələrində [padişahın idarəsində] bulunan bunca ünsüri-islam içərisində müxtəlif millətlər var idi. Rumeli və Anadolu türklərinin həyati-ailədən [ailə həyatından] bəhərdar olduqlarını [nəsib aldıqlarını; fayda gördüklərini] və ya olmadıqlarını iləridə tədqiq edəcəyiz. Yalnız ufaq bir təmasla keçəlim:

Rumeli türklərində həyati-ailə bir az təməddün etmiş [mədəniləşmiş], müräffəh [rifaha çatmış] ədd [hesab] olunur. Avropanın Asiya ilə güzərgahı və ticarət, sənaye nöqteyi-nəzərindən əhəmiyyəti haiz [daşıyan] və digər ölkələrə rəqabət edər bir mühitdir. Səlanikdə yaşayan, Ədirnədə yaşayan qadınlarla İstanbulda yaşayan qadınların fitrəti başqa-başqadır. Ədirnə İstanbula qərib [yaxın] bulunmaqla bərabər, İstanbul ləhcəsini almış, Balkan müharibeyi-fəlakəti [fəlakətli Balkan müharibəsi] üzərinə şimaldan gələn mühacir ailələrinin lisanları da qarışmış, füqəra və kasıb qismi çoxalmış, zəngin və kübar qismi azalmışdır. Zəngin olanlar isə ailələrinə olduqca tərbiyə verə biləcək qüdrətə malikdirlər. Əsasən məmurin [məmurlar; dövlət xidmətində işləyənlər] və mütəfənnin [oxumuş, təhsilli] olanlar və bilxassə Avropaya gedən xətti-hədidin [dəmir-yolunun] məbəri [keçidi] üzərində olduğundan əcnəbi sükkanı da [sakinləri də] bu mədəniyyətin asari-ənvarından [nurunun təsirindən] azadə qalmamışlardır. Fəqət Səlanik bütün Rumelinin ticarət məqərri [mərkəzi]... Avropa sənaye məhsulatı [məhsulları] kamilən buradan idxal edilir. Dəniz ticarəti o qədər bol olan və qayət mədəni olan şu gözəl mühit vaxtilə türklərdə ikən ailə tərbiyəsi olduqca yüksək idi. Həman İstanbul xanımları dərəcəsinə natiqəpərdaz [nitq qabiliyyəti yüksək], milli səxavətkar xanımlar törəmişdir.

Vəlhasil, Səlanik mühiti, qadınlıq irfanını yüksəltdi və bu üzdən mehri-hürriyyət [azadlıq günəşi] Səlanikdən tövlid etmişdir [doğmuşdur]. Hərəkət Ordusunun qərargahı burası idi. Hər nə qədər hərəkəti-fikriyyənin [ideoloji cərəyanların] məbdeyi-mahəsəli [çıxış nöqtəsi] İstanbul isə də, İstanbul sükkanı [sakinləri] kamilən babi-hökumətin pərvərdələri olduğundan [hökumət qapısında bəslədiyindən], Səlanik hərəkəti-fikriyyəsini İstanbula müreccəh [üstün] görürəm...

Rumeli faciəsini mütəaqib [faciəsinin ardınca] İstanbula hicrət edən kübar familiyalar, Səlanikdəki aldığı feyzi İstanbulda ikmal etdilər [tamamladılar; kamilləşdirdilər].

Bütün məmaliki-Osmaniyyəyə gedən məmurlar İstanbuldan çıxır. Sətvəti-hökuməti [hökumətin qüdrətini] təmsil və irəə edənlərin [göstərənlərin] əksərisi paytaxti-müəzzəməyi-Osmaniyyədən [Osmanlının əzəmətli paytaxtından] nəş'ət etdiyinə [meydana gəldiyinə], maarif nurunun mərkəzi bulunduğuna, bu nöqteyi-nəzərdən də Səlanik qadınlıq irfanını bəl' etmişdir [özündə ehtiva etmişdir].

İstanbulda təsəttürə [örtünməyə; İslami qaydalara uyğun örtünməyə] ədəmi-riayət [riayət edilməməsi] məsələsi dövri-Həmididə olduqca iləriləmiş ədd [hesab] olunur. Vaxta ki [o vaxt ki], dövri-məşrutiyyət [konstitusiyalı monarxiya dövrü] ənvari-əhraranəsi [azadlıq nurları] ilə tülu etdiyi [doğduğu] sıra-larda qadınlıq aləmində başqa bir feyz, böyük bir təhəvvülat [dəyişiklik] hiss olundu. Bunlara müariz [etiraz edən], mütəariz [ziddinə gedən] çox çıxdı. Məşayixi-islamiyyənin [İslam şeyxlərinin] vəsayası [vəsiyyətləri], əmr-nameləri[nin] bir-birini mütəaqib [bir-birinin ardınca] süduru [verilməsi; meydana çıxması] qadınlıq israri-fikrisinə [qadınlıq ideolojisinin israrına] bir ədil-lədir [dəlildir]. Binaileyh [ona görə] qadınlıq fikri bir xurşidi-dirəxşan [parlaq günəş] kimi İstanbuldan mühitinə sərpildi və nəşvünüma buldu [genişləndi; yayıldı; inkişaf etdi] və bulur da deməkdir.

Demək olar ki, Rumelidə yeganə Səlanik qadınlarında bir hərəkət, bir cərəyan var imiş. Başqa mühitə ətf ediləcək nəzərlərdə hərəkəti-fikriyyə [ideoloji hərəkət, fəaliyyət] əsərini İstanbul civarına [ətrafına] yaxın vilayətlərdə görünür. Fəqət bunlarda da o qədər

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 21 noyabr (Cümə axşamı günü) tarixli 46-cı nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Anadoluda nəşrə əhəmiyyət verilməmiş, əski üsul və qaydadan qətiyyən ayrılmamışlardır. Düyünlər, cünbüşlər [əyləncələr] kamilən əski şəkildə davam etməkdədir. Yalnız şəhərlilərlə köylülər arasında fərq vardır. Məişətə aid cəhətiylə köylülər şəhərlilərdən fəzlə [artıq; əlavə] fəaliyyətdə bulunurlar.

Anadoluda həyati-ictimaiyyə sönmüşdür. Köylülər ümumiyyətlə ziraətlə [əkinçiliklə] məşğul görünür. Anadolu sərapa [başdan-ayağa] ziraət məmləkətidir. Halbuki şəhərlərdə hər bir sənətin istinad mərkəzi, asari-fəaliyyəti-istehsalatı [istehsalat fəaliyyətinin izləri, təsirləri] bazari-ticarətdə [ticarət bazarında] mər'idir [özünü göstərməkdədir]. Demək ki, şəhər həyati-ictimaiyyədə köylülərdən sənaye nöqteyi-nəzərindən fərqlidir. Bir də ünas [qız] məktəblərinin bulunması... Maarifcə sönük, donuq bir işıq haleyi-matəm [matəm haləsi] içrə şu hərbi-hazır [hazırkı müharibə] içərisində sənələrcə yə'sə [matəmə] bürünmüşdür. Sürən hərb məsaibi [fəlakətləri] köylüləri böyük intibahata [intibahlara; oyanışlara] məzhər [nail] etmişdir. Əvvəlcə qadınlar yalnız xanə [ev] işiylə məşğul ikən, bu gün köylülər erkək işlərini pək ələ görürlər.

Əvvəlcə tarlaya gedən işçi fəqirə [kasıb] bir qadın hicabla [utanaraq] gedirdi. Şimdi isə məişəti uğrunda can ataraq gedir. Həyati-məişət ailənin ruhu məsabəsində [yerində] olduğuna, yaşamağa haqq qazanacaq millətlər çalışmağa məhkumdur. Çalışmayan bir millət yaşamaz. Bu qanuni-iqtisad və həyatiyyəyə [iqtisadiyyatın və həyatın bu qanununa] təb'ən [tabe olaraq] köylülərdə fəaliyyəti-iqtisadiyyə [iqtisadi fəaliyyət] şu hərb sənələrində qat-qat artmışdır. Anadolunun hər bucağında bəslənən əsgər yavrucuqlarını birər-birər cəbheyi-hərbə sövq edilərkən, validələri [analarɪ] və həmşirələri [bacıları] əlindəki, ovcundakı nüqudunu [pulunu] təslim edərək göndərir. Köydə yap-yalnız qalınca nə yapacaq? Yalnız başına çalışmağa, qarnını doyurmağa məcburdur. İştə qadınlar, erkək həyati-fəaliyyətə atıldığı dəqiqədən etibarən o əski əfkari-mənhusədən [nəhs, uğursuz fikirlərdən] qismən azad bulunmuş olurlar.

* * *

İstanbul afaqında [üfüqlərində] nəcmi-hürriyyət [hürriyyət ulduzu] göründükcə, qadınlıq aləmi bir eydi-məsərrətə [şadlıq bayramına] qərq oldu. Yeni-yeni fikirlər meydani-münaqişəyə buraxıldı. İstanbul mətbuatı adəta bir mücadileyi-qələm [qələm mübarizəsi] şəklini aldı. Hürriyyətin ilk kəlamı qadınlıq etilası [ucalması] oldu. Qadınlığın e'lası [ucalması; şan-şöhrət qazanması] demək idi. Əli qələm tutan əshabi-mühərririn [yazıçılar] qadınlıq etilası, nicatı, səadəti uğuruna pək çox yazılar yazdılar. Etiraz tufanları mətbuat sütunlarında yüksəldikcə yüksəldi, binaileyh [ona görə], böyük sədəmələr [toqquşmalar] yapdı. Nəhayət, şurişi-əzim nətayici [böyük çaxnaşmalar nəticəsində] qadınlıq layiqi bulunduğu kamalata doğru çıxmağa başladı. "Qadın ruhu", qadın hissiyyatı, qadın əfkarı [fikirləri], qadın əş'arı [şeirləri], vəlhasil qadınlığa aid məsaili-ictimaiyyəyə [ictimai məsələlərə, ictimai problemlərə] geniş bir yol açıldı.

Bir çox cəridələr [qəzetlər] nəşr olundu, risalələr [elmi əsərlər] kamilən bu hissiyyati-aliyyə [ali duyğular] peşində qoşurlar. Buna binaən [əsasən] Türkiyədə qadınlıq cərəyanlarına başlıca saiq [sövqedici güc, səbəb] hürriyyəti-şəxsiyyə [şəxsiyyət azadlığı] oldu. Dövlətin idari təşkilatı sərbəst lisana malikiyyətdən [yiyələndiyindən], qadınlıq ruhunda həssasiyyət oyandırdı.

Tarixçeyi-maziyyənin [keçmiş tarixlərin, keçmiş dövrlərin] topladığı bəqiyyeyi-rüzgarı [küləklərin qalıqları] qadınlıq əzhari-rayihədarına [ətirli çiçəklərinə] əsdikcə, o novbahari-növnəhali-aləm [yer üzünün təzə fidanlarının ilkbaharı] oldu.

Qadınlıq şeiriyyət deməkdir. O şeiriyyətin timsali-müşəxxəsi [konkret, canlı timsalı] qadınlıqdır. Qadın ömri-baharisini [həyatının baharını] idrak etdikcə, üzərindəki şitayi-kabusdan [kabus qışından] qurtulduqca, feyzli səmərlər [meyvələr] iqtitaf etməyə [dərməyə, toplamağa] başladı.

İstanbulda qadın şeiri adəta moda idi. Qadın düşüncəsini başqa tələqqi edirlər [qiymətləndirirlər]. Qadın şeirlərinin həssasiyyəti, cidən incəliyi olduqca mövqeyi-ehtiram qazandı.

Mətbuat sütunlarında Salimə Sərvət Seyfi xanım, Nigar binti-Osman kimi buna mümasil [bənzər] ədibələr, şairələr yeni-yeni törəməyə başladı. O zamanlar Tofiq Fikrətin, Əbdülhaq Hamidin, Cənab Şəhabəddinin, Süleyman Nazifin, şüərayi-bənamın [tanınmış şairlərin] asarını [əsərlərini] təbcil edərək [tərifləyərək; ucaldaraq] yazılan əsərlər nə qədər qiymətdar idi. Bu ədiblər, kamilən qadınlığa nüfuz [təsir] etmiş və yazdıqları əsərlər kamilən qadınlıq ruhunu təsvir və təşhir etmişdilər [təsvir etmiş və açıb göstərmişdi]. Tofiq Fikrətin xanım qızlar haqqında yazdığı şeirlər o zamanın modası hökmüncə adəta bir xəzinə və giranbaha [dəyərli] ədd [hesab] edildi.

Tofiq Fikrətin "Sis" parçasından daha ziyadə qadın şeirlərini tənsib edirlərdi [seçirdilər; üstünlük verirdilər].

Bu hərb sənələri içərisində qadınlıq getdikcə yüksəldi, hətta müvərrixi-şəhir [məşhur tarixçi] Əhməd Rəfiq bəy kimi dahiyizəmanə [zəmanə dahisi] belə tarixi müsabiqələrə [təcrübələrə] girişdi. Vaqifanə, alimanə, müdəqqi-qanə [bilikli, elmli, diqqətli bir tədqiqatçıya yaraşan tərzdə] yazılan Lalə dövründə İbrahim paşanın qadınlara atdığı "zəri-məhbublar"[dan] [qızıl pullardan] tut da, digər xəta və səvablarına [səhvlərinə və doğrularına] varıncaya qədər böyük-böyük fəsillər yazılmağa başlandı.

Müvərrix [tarixçi] Cövdət paşanın qızı Fatma Aliyə xanım əfəndinin müdafiəsi nə qədər alimə idi, nə qədər fazilanə bir üslubi-ədibanə ilə mətbuatda namını hörmətlə yad etdirməyə vəsilə oldu. Əlyövm [bu gün, günümüzdə] qadınlıq aləmində şöhrət bulmuş "feminizm" cərəyanlarının pişvası [rəhbəri] olmuş sərəfrazani-ədibədəndir [qadın ədiblərin qabaqcıllarından, öndə gələnlərindən biridir].

"Feminizm" məsələsini ruhu və qəvamizi [anlaşılmaz cəhətləri] ilə meydani-ələniyyətə vəz [aşkar etmək; aydınlaşdırmaq], əfkari-ümumiyyə [ictimai rəy] üzərində dolaşan kabusu rəf etmək [aradan qaldırmaq] üçün müzlim hissiyyatdan [qaranlıq duyğulardan] nurani nicata [işıqlı qurtuluşa] isal edici [çatdıran] qüvvətli əllər – müqtədir mühərrirlər, mühərrirələr çıxdı. Bidayəti-məşrutiyyətdən [konstitusiyalı monarxiya dövrünün əvvəlindən] bu hərb sənələrinə varıncaya qədər nəşr edilən risalələri alar oxu[ya]r isək "feminizm" bəhsinin nə qədər əhəmiyyətlə tələqqi edildiyini [ələ alındığını] anlarız.

Bidayəti-məşrutiyyətdə "Qələm", "Halə", "Şəhab", "Sərvəti-fünun" məcmuələri çıxırdı. "Piano", "Düşünüyorum" qəzetələrini çıxaran Əhməd Nəbil, Bəha Tofiq əfəndilər bilaxirə [daha sonra] "Zəka" qəzetəsini çıxarmağa başladılar. Sonradan "Şəhbal", "Donanma", "Rəsimli kitab"da qadın-lıq haqqında pək vaqifanə fikirlər mündəricdir [dərc edilmişdir]. Son zamanlarda Camal Nadir bəyin çıxardığı "Rübab" qəzetəsi də qadınlıq haqqında olduqca rəğbətə məzhər [nail] oldu. Son zamanlarda "Qadınlar dünyası" namında bir risalə çıxırdı. Qadınlıq hüququnu mühafizə və müdafiə məqsədini istihdaf edirdi [hədəfləyirdi] və buna şəriki-qələm olanlar [qələm ortağı olanlar, eyni mövzuda yazanlar] çoxdu. Bilxassə [xüsusilə] türk mətbuatında olduqca mövqe qazanan Cəlal Nuri bəy qadınlarımız haqqında böyük bir əsər yazdı, "feminizm" bəhsini eyi qurcaladı. "Türk yurdu", "İctihad", "Yeni məcmuə" – bu qəzetlərdə hekayəçilik surətində qadınlıq ruhu sönük gedir. Milliyyət prinsipləri, din üzrə münaqişələr açılır... Bu qəzetələrin kaffəsi [hamısı] qadınlıq ruhunu yüksək görmək üçün səhifələrini açıq bulundurmaqdadırlar.

Vəlhasil, qadınlığa çalışan erkəklərdən Tofiq Fikrət şeirləri ilə qadın ruhunu ifham edir [anladır, başa salır]. Onun ruhundakı incəlikləri bizə ilhamati-füsunkari [füsunkar ilhamlar] tərzində bir hissi-bədii verir. Cəlal Nurinin, Bəha Tofiq və rüfəqasının [yoldaşlarının] yazdığı feminizmə aid əsərlərini oxuduğum vaxt ruhumda qeyri-ixtiyari "qadınlıq himayəsini", fikrimdə "qadınlıq istixlasını" [qadınlığın xilasını] düşünürəm. Qadınlarımızı bir taqım müxəllədati-güzideyi-irfanü-kamalat [irfan və kamalın ən seçilmiş, ölməz əsərləri], ədibanə, vaqifanə məqalat [sözlər] "feminizm ruhunu" təsvir etdi. Şairlər, ədiblər, əmrazi-ictimaiyyə [sosial naxoşluqlar, ictimai qüsurlar] mütəxəssislərinin yazdıqları yazılardan başqa, ən ziyadə romançılıqda şöhrət bulan, milli romanlarıyla rəğbət və hörmət qazanan gənc mühərrirlərdən romantik Hüseyn Rəhmi bəy vardır ki, həyati-ictimaiyyəmizi [ictimai həyatımızı] təşhir etməkdədir [açıb göstərməkdədir].

Əbdüllətif

Böyük simalar:

ƏBDÜLHAQ HAMİD

Fələklər, kəhkəşanlar, asumanlar
Onun cövlangəhi-fikrü-xəyalı...
Mələklər, nurlar, huri-cinanlar
Onun həp həmdəmi-hissü-məalı...
Üfüqlər qarşısında səcdə eylər,
Səmalar devrilər də ərzi-dunə.
Bütün asarı ilə – dahiyanə –
Qoca türk ellərinə inci sərpər.
O, türkün ən böyük, şanlı dühası,
Onunla nurlanar Şərqin səması.
O bir mucid ki, hissü-şe'rlərdən
Yaratdı iştə bir bürci-mütəntən.
Fikirlərdə dərinliklər oyatdı,
Dərinliklərdə yüksəklik yaratdı.
Həman şe'rində ülviyyət gülümsər,
Münəvvər şe'ri Hamid, pək münəvvər...

Mütəllib oğlu Abid Alp

AZƏRBAYCAN MİLLİ ŞURASINDA

- Dünən gündüz saat 12-yə təyin edilmiş olan Milli Şura iclası axşam saat 7-yə təyin edilmişdir.

- Azərbaycan Heyəti-Vükəla rəisi [Nazirlər Kabinetinin sədri] Fətəli xan Xoyski, dünən Müttəfiq qoşunları komandanı general Tomsonla görüşmüşdür.

- Azərbaycan Hökuməti təşkil edilməsi layihəsi Azərbaycan Milli Şurasına daxil edilmişdir.

GÜRCÜSTANDA

- Tiflisdən xəbər verirlər ki, Tiflisdə olan alman əsgərləri arasında Saldat Vəkilləri Şurası [Əsgər Deputatları Soveti] təşkil edilmişdir. Vəkillər Şurası alman ərkanında [qərargahında] iclaslar yapmaqdadır. Məzkur [adı çəkilən] şura Tiflis Əmələ və Saldat Vəkilləri Şurası [Fəhlə və Əsgər Deputatları Soveti] ilə münasibata girişmişdir.

- Tiflisdə olan alman heyətinin məlumat bürosu xəbər vermişdir ki, Almaniya ilə əqd edilən [imzalanan] mütarikə şəraiti [atəşkəsin şərtləri] bir qədər yüngülləşdirilmişdir. Təzə şəraitin təfsilatı məlum deyildirsə də, ümdə maddələri bunlardır:

1. Qərb cəbhəsinin təxliyə müddəti uzadılmışdır.
2. Alman əsgərləri hələ şərqdə qalacaqlardır.
3. Alman sahilinin ablukası (blokadası) əvvəlkindən az bir şiddətlə vaqe olacaqdır.

- Alman zabitləri komissiyası Gürcüstanda olan alman əsgərlərinin dəniz təriqi [yolu] ilə əzimət etmələri [hərəkət etmələri] və Ukrayna təriqi ilə keçib Polşaya getmələri haqqında müzakirədə bulunmaqdan ötrü noyabrın birində Potidən Sevastopola azim olmuşlardır [yola düşmüşlərdir].

- Tiflisdə olan alman heyəti-mürəxxəsəsi [nümayəndəliyi] təzə Hökumət binagüzarlıqlarını [təzə Hökumətin sərəncamlarını] almışdır. Bu əmrlərin birincisində Almaniya imperiyasının Qafqaziyada olan heyəti bundan belə sadəcə bir surətdə alman heyəti təsmiyyə ediləcəkdir [adlandırılacaqdır].

- Çxenkeli, Müttəfiq dövlətlərin Gürcüstan istiqlaliyyətinə nə münasibətdə olduqlarına bələd olmaq üçün Berlindən çıxıb Bern şəhərinə gəlmişdir.

HİNDİSTAN MUXTARİYYƏTİ

Milanda müntəşir [nəşr olunan] "Korryere della Sera" qəzetəsindən Hindistan Hökumətinin məşruti [konstitusiyalı] bir idarə halına ifrağı [çevrilməsi] haqqında Hindistan nazirinin raporunda möhtəvi [yer alan] təkliflər birinci dərəcədə əhəmiyyəti haiz [daşıyan] bir vəq'eyi-tarixiyyə [tarixi hadisə] təşkil etməkdədir. Zira cəmiyyəti-bəşəriyyənin [insan cəmiyyətinin, bəşəriyyətin] kəmiyyət etibarı ilə xümsünü [beşdə birini] təmsil edən bir millətə İngiltərənin bilixtiyar [könüllü olaraq] böylə bir imtiyaz bəxş etməsi pək cəsuranə bir hərəkətdir.

Hindistana idxal edilmək istənilən məşruti islahatdan [konstitusiya islahatından] əsl məqsəd əhalinin tərbiyeyi-fikriyyə və elmiyyəsini [fikri və elmi tərbiyəsini] e'la [ucaldaraq] və ikmal edərək [kamilləşdirərək] orada məsul bir idarə təsis və əhalini o şəkli-idarəyə doğru sövq və isal etməkdir [çatdırmaqdır].

Əksəriyyəti-xalqın [xalqın əksəriyyətinin] cəhaləti, müxtəlif irqlər arasında mövcud olan dini, ictimai təzad və təfavütlər və təbii olaraq təhəddüs edən [meydana çıxan] ənənəvi xüsumətlər [düşmənçiliklər] qarşısında böylə bir işi başa çıxarmaq filhəqiqə [doğrudan da] müəzzəm [əzəmətli] və müşkül bir məsələdir. Bununla bərabər, Hindistanın vəziyyəti-hazirəsi [hazırkı vəziyyəti] böylə bir təqlib [dəyişiklik] və inqilabın icrasını zəruri qıldığı halda, İngiltərə iləridə muxtariyyətə doğru vüqu bulacağı məlhuz olan [təsəvvürə gətirilən] hər təşəbbüsün şimdidən önünü almaq istəyir.

Hər əyalətin kəndinə məxsus bir valisi ilə bir də hökuməti-məhəlliyyəsi [yerli hakimiyyəti] olacaqdır. Hökuməti-məzkurə [adı çəkilən hökumət] iki şöbəyə münqəsim [ayrılmış] bulunacaq. Bunlardan birinci şöbə; valisi və biri ingilis, digəri hindli olan iki əzadan [üzvdən] mürəkkəb [ibarət] bir məclisi-icraiyyədən [icraedici məclisdən] mürəkkəb olacaq, digəri isə valinin təhti-idarəsində [idarəsi altında] qüvveyi-təşri'yə [şəriət məhkəməsi] əzası [üzvləri] miyanından [arasından] müntəxəb [seçilmiş] bir qaç nazirdən ibarət olacaqdır. Böyləliklə yavaş-yavaş əzasının sülüsanı [üçdə ikisi] əhalinin arayi-ümumiyyəsi [ümumi səsləri] ilə müntəxəb bir məclisi-təşri'yə [şəriət məclisi; məhkəmə məclisi] indində [nəzdində] əfal və hərəkatından [əməllərindən və hərəkətlərindən] məsul nəzarət məqamları ehdas edilmiş [yaradılmış] olacaqdır.

Yeni tənzim olunan proje, Hindistan nazirləri tərəfindən tədqiq və həll edilə biləcək olan mali və ədli [ədliyyə məsələlərinə məxsus] və tərbiyəvi məsailin [məsələlərin] cədavilini [cədvəllərini] yavaş-yavaş tövsi etmək [genişləndirmək] tərəfini tərvic edir [tərəfinə rəvac verir, onu inkişaf etdirir].

Hind həyati-siyasiyyəsinin [siyasi həyatının] ən əsaslı qüsurlarından biri əhali tərəfindən müntəxəb müməssillərin [seçilmiş nümayəndələrin] yalnız təndiq və təfsir etmək vəzifəsi ilə mükəlləf olub, məsuliyyət və səlahiyyətdən tamamilə bəri [azad] bulmuş olmasıdır. Proje biləks [əksinə] məbusan [millət vəkilləri, millət nümayəndələri] miyanında [arasında] müntəxəb hökumət əzasının məclis indində məsul olması kimi bir əsasi-cədid [yeni bir qayda] vəz etdirmək [meydana qoymaq] istəyir.

Bundan maəda [başqa], hal-hazırda Hindistan nazirinin doğrudan-doğruya [birbaşa] təhti-hökm və idarəsində [hökmü və idarəsi altında] olan məclisi-təşri'yənin yerinə, biri hökumət tərəfindən müntəxəb və Şurayi-Dövlət mahiyyətini haiz [Dövlət Şurası mahiyyəti daşıyan], digəri isə əhali əzasının əksəriyyəti və məclisi-təşri'yə namı altında iki məclis iqamə edilmək [meydana qoyulmaq, yaradılmaq] istənilir ki, bu sayədə Hindistan muxtariyyəti-idarə yolunu pək çabuq tutacaq.

CƏNUBİ AFRİKA İSTİQLALİYYƏTİ

Cənubi Afrikada nəşr olunan "De folksstexm" qəzetəsi Cənubi Afrikada yaşayan bur qövmündən ötrü istiqlaliyyət hüququna nail olmaq arzusu ilə cümhuriyyət hərəkatına mülhəq olmuşdur [qoşulmuşdur]. Qəzetə deyir ki:

"Biz ciddi surətdə izhar edib, bütün Cənubi Afrikanın istiqlaliyyətini gözləyirik. Bunun da axırda feilən icraya qoyulacağı şübhəsizdir. Biz daha da iləri hərəkət edib izhar ediriz ki, cənubi afrikalılardan bir nəfər tapılmaz ki, bizim bu fikrimizə şərik olmasın."

BAKI XƏBƏRLƏRİ

İcbari qərardad

Bakı şəhərində olan Müttəfiq qoşun komandanı general Tomson böylə bir icbari qərardad nəşr etmişdir:

1 - 1918 sənəsi noyabrın 17-si gündüz saat 12-dən Bakı şəhəri idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi rejim] altında (vayenni palajeni) elan edilir. Mən və mənim tərəfimdən Müttəfiq hökumətlər namından təyin edilən məmurlar bu işə mübaşir [icraçı] olacaqlardır.

2 - İdareyi-örfiyyeyi-əsgəriyyə zamanında mən Bakı şəhərinin əsgəri general-qubernatoru olacağam.

3 - Polkovnik Kokerell Bakı şəhərində Müttəfiq dövlət polisiyyəsinin komissarı təyin edilir.

4 - Bakı Şəhər İdarəsi və qeyri ictimai idarələr öz fəaliyyətlərini davam etdirməlidirlər.

5 - İdareyi-örfiyyə qanun və qaydaları bu yaxın zamanda əlavə olaraq elan ediləcəkdir. Bundan belə də lazımı surətdə xəbər veriləcəkdir. Yuxarıda göstərilən qanunlardan hansı birisini xələldar etməkdə [pozmaqda] müttəhim olanlar mənim tərəfimdən təyin ediləcək məmurlar və ya mənim lazım bildiyim tədbirlər vasitəsilə ağır cəzaya giriftar olacaqlardır.

Bakı şəhərinin
Müttəfiq qoşunları komandanı general-mayor V. M. Tomson

- Bakı qarnizonu ilə Bakı donanması Petrovska varid olduqdan [çatdıqdan] sonra bütün bu qüvvələr polkovnik Biçeraxov tərəfindən təzədən təşkil edilmişdir. Əsgəri dəstələrdən bir hissəsi buraxılıb, bir hissəsi ixtisar edilmişdir. Donanma həmçinin təzədən təşkil edilmişdir. Sentrokaspi əməliyyat hissəsinə müdaxilə etməkdən kənar edilib, ancaq xozyaystvenni işlər [təsərrüfat işləri] onun əlində qalmışdır. Mərkəzi Komitə ilə bərabər, gəmi komitələri də komanda etmək-dən kənar edilib, bütün ixtiyar gəmi komandanlarına verilmişdir. Voskresenski Baş Komandan nəzdində əsgəri bəhri işlər [hərbi donanma işləri] üçün baş vəkil təyin edilmişdir. Bəhriyyə ərkanı naçalniki [Donanma qərargahının rəisi] polkovnik Novikov və Bəhriyyə qüvvələri komandanı leytenant Takişvili təyin edilmişlərdir.

- Bir-iki gündür ki, şəhərin bir çox çörəkçi dükanlarında çörək bişirilməyir. Çörək bişirən dükanlar qarşısında yenə də "quyruqlar" əmələ gəlməyə başlamışdır. Bununla bərabər çörəyin qiyməti artıb, dörd manat yarıma və daha da yuxarı satılmağa başlamışdır.

- İki gündən bəri bilaaram [aramsız] yağmaqda olan yağış şəhər küçələrini xarab etməklə böyük xəsarəti mövcib olmuşdur [xəsarət vermişdir]. Bir çox küçə səkilərini yağış yuyub aparmışdır.

- General Denikin tərəfindən rəsmi sifarişatla [tapşırıqlarla] Bakıya vəkil gəlmişdir.

- Məşhur camaat xadimlərindən professor Qolovin Bakıya varid olmuşdur [gəlmişdir].

- Məşhur siyasi və camaat xadimlərindən Malyantoviçin Tiflisdən Bakıya gələcəyi gözlənir. Siyasət xadimləri dəstəsi tərəfindən Malyantoviçə təcili dəvətnamə göndərilmişdir.

- Mərkəzi Ev Komitəsinin sədri Leontyeviç general Tomson tərəfindən dəvət edilib, Mərkəzi Ev Komitəsinin gələcək işləri haqqında müsahibədə bulunmuşdur.

- Məhəlli [yerli] qəzetələrin yazdığına görə, dünən sabiq Senrtokaspi, İcra Komitəsi üzvləri, siyasi təşkilat, kooperativ və qeyri nümayəndələr iştirakıyla demokratik şurası vaqe olacaqmış. Bundan əvvəl vaqe olmuş şurada bolşeviklərin və kadetlərin dəvət edilməsi məsələsi qaldırılmış, bolşeviklərin dəvəti məsələsi rədd edilib, ikinci məsələ üstündə ixtilafi-ara [fikir ayrılığı] vücuda gəlmişdir. Zənn edildiyinə görə, kadetlər dəvət ediləcəklərdir. Çünki onlar Ufa Hökumətində iştirak edirlər.

- "Kaspi" qəzetəsinin yazdığına görə, Petrovskda təşkil edilmiş olan "Kaspi Hökuməti" təzə Rusiya Hökuməti ilə münasibət çətin olduğundan vücuda gəlmişdir. Təzə "Kaspi Hökuməti" oradan düsturüləməllər [təlimatlar] alıb və o düsturüləməllər sistemincə hərəkət etməkdədir. Məzkur [adı çəkilən] hökumətdə təbəddülat [dəyişikliklər] olduğuna görə, hökumətin heyətinin kimlərdən ibarət olduğu dürüst məlum olmamışdır.

AZƏRBAYCAN DƏMİRYOLUNDA

- Azərbaycan dəmiryol hərəkəti naçalniki stasyon naçalniklərinə xəbər vermişdir ki, Petrovsk xəttində olan stasyonlardan ərzaq yükləri gətirmək ancaq şahədətnamə ilə Ərzaq Nəzarəti nümayəndələrinə vaqüzar edilir [tapşırılır].

- Azərbaycan dəmiryolları naçalniklərinin binagüzarlığına [sərəncamına] görə, Azərbaycan dəmiryolları dairəsində naloj-platyoj [yüklər üçün ödənişin çatdırılma zamanı həyata keçirilməsini nəzərdə tutan sistem] ilə yüklər qəbul ediləcəkdir.

O. A. Salmanın
Diş kabinəsi və süni diş müalicəxanası

Dişlərə və ağza müalicə edir, ağrısız çıxarır, doldurur, qızıl və kauçuk üzərində süni dişlər qayırır və qızıldan qapaqlar qayırır.

Qəbul edir hər gün saat 9-dan 2-yə kimi, 4-dən 7-yə kimi. Naberejni caddədə Dombrovski pereulokda [döngədə] Mehdiyevin 7 nömrəli evində. Telefon nömrə 30-02.

253

Həkim Arşak Ayrapetoviç Akopyans

Əsəbi və daxiliyyə naxoşluğuna mübtəla olanları axşam saat 3-dən 6-ya kimi qəbul etməyə başlamışdır.

Ünvan: Balaxanski caddədə nömrə 10, İstanislavski caddənin küncündən 3-üncü ev. Telefon 55-26.

Saat 3-ə kimi 32-77 nömrəli telefon ilə danışmaq mümkündür. (16-ncı xəstəxana).

256

Berlin Darülfünununun həkimi
L. Melkumyans

Əmrazi-tənasüliyyə [cinsi xəstəliklər] və dəri naxoşlarını qəbul edir. Qan damarlarına "606" və "916" dəvalarını istemal [tətbiq] edir. Hər gün saat 2-4-ə kimi.

Ünvan Birjevoy caddədə Malakan bağçası qarşısında həkim Temirxanyanın müalicəxanasında. Telefon nömrələri 29-85 və 32-77.

255

Doktor Krinski

Sifilis, əmrazi-tənasüliyyə [zöhrəvi xəstəliklər] və cild mərəzinə mübtəla olanları qəbul etməyə başlamışdır. Səhər saat 9-dan 12-yə kimi; axşam saat 4-dən 7-yə kimi. Ünvan: Tarqovi caddədə Tağıyev qardaşlarının 10 nömrəli evində. Telefon 15-59.

263

Diş təbibəsi Altmanın diş müalicəxanası

Naxoşları qəbul edir saat 8-dən 1-ə kimi, 4-dən 7-yə kimi, qadınları 1-dən 3-ə kimi. Dişlərə müalicə edir, doldurur, ağrısız çıxarır və qızıl və kauçuk üzərində süni dişlər qayırır. Hərbilərə, məktəblilərə və çocuqlara külli faiz edilir.

Ünvan: Şamaxinski caddədə ev nömrə 20. Aptek qarşısında. Telefon 18-73.

245

Doktor Ağahüseyn Kazımov

Əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olanları qəbul edir hər gün saat 5-dən 7-yə kimi. Parapet, Şəbi İbrahimovun evində, 3-cü mərtəbə. Telefon 27-86.

244

Diş müalicəxanası
S.M. İtkinin süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Marskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

208

Həkim S. L. Şklovskaya

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

209

Diş həkimi Melçarski

Torqovaya soqaqda Muxtarovun xanəsində nömrə 15. Dişlərə tədavi edir, doldurur, ağrısız ixrac edir. Gözəl altun və sairə dişlər emal edir. Xəstələri qəbul edir: sübh saat 9-2-yədək.

210

Arvad diş həkimləri Z. A. Şexter və xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215

Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır. Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216

Doktor Kamilə xanım İsmayılov

Uşaq və əmrazı-daxiliyyəsi [daxili xəstəlikləri] olan naxoşları hər gün sabah saat 10-dan 2-yədək və axşam 4-7 qəbul edir.

Adres: Armyanski 16. Telefon 56-89.

235

Doktor F. S. Şteyn

Naxoşları qəbul edir səhər saat 9-dan 12-yədək, axşam saat 5-dən 7-yədək.

Mariinski və Tarqovı caddələrin küncündə Əşrəfovun evi, "Jorj" əksxanası. Telefon nömrə 54-44.

232

Doktor Əliheydər Allahverdiyev

Daxili naxoşları qəbul edir səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 6-ya kimi. İçəri şəhərdə bağın qarşısında Minaretski küçə, ev nömrə 1. Telefon nömrə 36-91. Б. Минаретская ул., д. N 1. Телеф. 36-91.

236

Doktor Rza bəy Sultanov
Paris Darülfünununda

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün saat 9-1-ədək, saat 4-7-yədək. Telefon 5-30. Adres: Parapet, Kolyubakinski küçədə nömrə 39. "Azərbaycan" qəzetə idarəsinin yanında.

237

Mama-feldşer M. K. Markoviç

Hamilə və azad olmuş qadınları qəbul edir. Bədənə dərman vurur və masaj edir. Hər gün saat 10-dan 12-yə kimi. Nijni Kladbişinski caddədə ev nömrə 89. Telefon 34-36. Burada həkim daxiliyyə və əmrazı-tənasüliyyə [cinsi xəstəliklər], qadın və cərrahiyyə naxoşları saat 3-dən 5-ə kimi qəbul edir.

240

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Əmr nömrə 15

"14 təşrini-sani 1334": Burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 14 noyabr 1918-ci ilə uyğundur.

Azərbaycan Cümhuriyyətinin Ümuri-Xeyriyyə Nəzarətindən

"15 təşrini-sani 334": Burada il, rumi təqvimlə verilmişdir (1334-cü il); miladi təqvimlə 15 noyabr 1918-ci ilə uyğundur.

"Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin baş mürəxxəsliyi və ona aid bütün şöbələri təsviyə edilir.": Əmrin mət-ni qəzetdə əskik getmişdir. Belə olmalıdır: "Təşrini-saninin 1-indən Ümuri-Xeyriyyə Nəzarətinin qaçqınların işi üzrə baş mürəxxəsliyi və ona aid bütün şöbələri təsviyə edilir."

Teleqraf xəbərləri

"Əhali kraliçanı təbrik etmişdir.": Burada söhbət 1890-1948-ci illərdə Hollandiya kraliçası olan Vilhelminadan gedir.

"…gündəlik hava müxabiratı...": Burada söhbət sərnişinlərin hava yoluyla daşınmasından gedir.

Mərkəzi Şura Hökumətinin məlumatı xəbərləri

"Şura Hökuməti Mərkəzi Komitəsi Məlumat Bürosunun xəbərləri" kimi başa düşülməlidir.

"Ukraynada olan alman qoşunları arasında bir çox şuralar təşkil edilmişdir.": Burada söhbət, "Əsgər deputatları sovetlərindən" gedir.

"Odessada bir qitə şurası, bir übur edən əsgər şurası vardır.": Burada söhbət, biri Odessadakı daimi qarnizon üçün və digəri Odessadan keçib getməkdə olan hərbi hissələr üçün iki ayrı şura təsis edilməsindən gedir.

"Qara Ataman alayı": Burada söhbət Leyb-Qvardiya Ataman Alayından gedir. Bu alayın əsgərləri qara, hündür başlıq qoyur, qara çəkmə geyirdilər, patrondaş və kəmərləri də qara idi.

"Alman komandanlığı inqilab xüsusundakı xəbərləri...": Burada söhbət Almaniyada 1918-ci ilin noyabr ayında başlayan inqilabdan (Noyabr inqilabı) gedir.

"Lakin Almaniya [və] Avstriyadan övdət edən əsgəri əsirlərin...": Burada söhbət Almaniya və Avstriyadan Rusiyaya qayıdan rus hərbi əsirlərindən gedir.

Almaniya inqilabı

"Bitərəf Sosial-Demokrat Firqəsi": Almaniya Müstəqil Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

"…sosializmə və siyasətə mütabiq [uyğun] tələblər...": "sosial və siyasi tələblər" kimi başa düşülməlidir.

"Xalq Tərəqqipərvəran Firqəsi": Mütərəqqi Xalq Partiyası (Almaniya) nəzərdə tutulur.

"Milli hürfikirlər": Milli-Liberal Partiya (Almaniya) tərəfdarları nəzərdə tutulur.

"…hökumət sosialistləri…": Almaniya Sosial-Demokrat Partiyası nəzərdə tutulur.

Almaniyada

"Almaniya Hökuməti Məclisi-Müəssisan dəvət edilməsini elan etmişdir.": Burada söhbət Veymar Təsisçilər Məclisindən gedir.

Qəzetələrdən

"Yaponiyanın təzə Xariciyyə naziri...": Burada söh

Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

İranın Azərbaycan qorxusu

Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə bu ölkənin xüsusi xidmət orqanları tərəfindən hazırlanan xaincəsinə silahlı basqın oldu. Terrorun qarşısını alarkən səfirliyin mühafizə xidmətinin rəisi baş leytenant Orxan Əsgərov şəhid oldu, iki nəfər isə yaralandı. Molla rejimi baş verən terror hadisəsini "məişət" zəminində baş vermiş "hadisə" və ya "insident" adlandırmaqla hücumun əsl mahiyyətindən yayınmağa çalışdı. Bu isə o deməkdir ki, bütün dünyanı silkələyən bu qanlı terror hadisəsinə İran tərəfi məsuliyyətsiz yanaşdı.

Buradan da belə nəticəyə gəlmək olar ki, terroru sifariş verən, onu hazırlayıb həyata keçirən qüvvələr istintaqın da düzgün aparılmasına imkan verməyəcəklər. Olaydan az sonra terrorçunun kamera qarşısında sərbəst görünməsi hər şeyin öncədən planlaşdırılmasından, Yasin Hüseynzadənin arxayınçılığı isə onun həyatına təminat verilməsindən xəbər verirdi. Bütün bu baş verənlər işin görünən tərəfi və eyni zamanda molla rejiminin Azərbaycan xalqına və dövlətinə olan kininin, nifrətinin nəticəsi idi. Haqlı olaraq onda belə bir sual yaranır: molla rejiminin Azərbaycana olan düşmənçiliyinin əsasında nə dayanır?

İran düşmənçiliyini açıq müstəviyə keçirib

İllərdir İran Cənubi Azərbaycan qorxusu ilə yaşayır. Əhalisinin yarıdan çoxunu azərbaycanlılar təşkil edən bir ölkədə Azərbaycan dilində məktəblərin, dərsliklərin, qəzet və jurnalların olmaması, məktəblərdə Azərbaycan dilində danışmağın yasaq olması fars-molla rejiminin azərbaycanlılara olan nifrətinin və eyni zamanda qorxusunun göstəricisidir. İran Azərbaycanın güclənməsini, nüfuz sahibi olmasını düşmən Ermənistandan da daha çox istəməyən dövlətdir. Elə bu məqsədlə də illərdir Ermənistan faktorundan məharətlə istifadə edərək ölkəmizə qarşı düşmənçilik edir. Torpaqlarımızın işğal olunması və işğal altında qalması üçün illərdir dəridən-qabıqdan çıxır. Ermənistana əsgəri yardımlar göstərir. Silah verir, kəşfiyyat materialları ilə illərdir Ermənistanı təmin edir. Gündən-günə artan gücümüz, hərbi qüdrətimiz İrana dərd olur. 44 günlük müharibədə Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi isə İranı lap çiləden çıxardı. İran illərdir ölkəmizə qarşı apardığı "gizli" düşmənçiliyini tam açıq müstəviyə keçirdi. Ölkəmizə qarşı təhdidlər artdı. Zəngəzur dəhlizinin özü üçün qırmızı cizgi olduğunu bəyan etdi. Hətta mətbuatda gedən məlumatlara inansaq, Ermənistanın 2020-ci ilin sentyabrında sərhədlərimizdə törətdiyi növbəti təxribat zamanı düşmənə əsgəri qüvvə ilə yardım edərək əlini şəhidlərimizin qanına da buladı.

İran düşünür ki, sərhədlərini 40 milyonluq bir xalqla bir çay ayıran Azərbaycan bir gün ayrılıq həsrətinə son qoya bilər. İndiyə kimi tapdalanmış hüququnu, haqqını tələb edə bilər. Ona görə də İran nəinki şeytanın dostu Ermənistanla, hətta şeytanın özü ilə də müttəfiqlik etməyə hazırdır. Təki Azərbaycanın başı özünə qarışsın. Amma yanılır...

Zəlzələdən əziyyət çəkənlərin harayı Tehrana "çatmır"

Özünü "islam dövləti" adlandıran İran islami dəyərləri həmişə tapdalayıb, gözdən salıb. Dini ayrı-seçkilik salaraq dindaşlarımız arasında ikitirəlik yaradıb. "İslamçılar"ın hakimiyyətə gəldiyi gündən vuruşduğu, qanını tökdüyü də müsəlmanlar olub. Dini təfriqəçiliklə istədiyini əldə edə bilməyən molla rejimi ölkəsinin ərazisində milli ayrı-seçkilik toxumu səpir. Neçə gündür İranda zəlzələ olub. Köməksiz, evsiz-eşiksiz qalan azərbaycanlıların harayı dağı-daşı yandırsa da, mollaların qulağına gedib çatmır. Evsiz qalan körpə uşaqlar soyuqdan əziyyət çəkir. "İslamçılar" sankı azərbaycanlı körpələrin çəkdikləri zülmdən, zillətdən zövq alır.

Özünü "islamın vəkili", "müsəlmanların hamisi" adlandıran molla rejimi müsəlmanlara qənim kəsilib. İraqda qarşıdurma yaradır, Yəməndə vuruşur, Suriyada qan tökür, Bəhreyndə terror törədir, Livanda terror təşkilatı yaradır, öz ölkəsində ən adi sosial haqqını, hüququnu tələb edən insanları məhkəməsiz dar ağacına çəkir. İran illərdir ki, beynəlxalq hüquqa meydan oxuyur. Dünya birliyi ilə hesablaşmır. Mənəmmənəmlik edir...

İran dindən və terrordan alət kimi istifadə edir

İranın iki silahı var: din və terror. Hər ikisindən də öz çirkin məqsədlərini həyata keçirmək üçün istifadə edir. İrana müqəddəs yerlərə ziyarətə gedən insanları, turistləri müxtəlif metodlardan istifadə edərək casusluğa cəlb etməsi bu ölkədə artıq adi hal alıb. Xüsusilə ölkəmizdən İrana gedənləri molla rejimi asanlıqla ram edə bilir. Acınacaqlı haldır ki, mollaların toruna yalnız sadə, az savadlı vətəndaşlarımız deyil, bəzən özünü "ziyalı" adlandıranlar da düşür.

İran əsl niyyətini gizlətmək üçün əsasən iki üsuldan istifadə edir: din və İsraildən. İsrailin əleyhinə təbliğat aparmaqla, guya, "dinin hamisi" "sionist rejimi" ilə vuruşduğu görüntüsünü yaratmağa çalışır. Halbuki minlərlə insanımızın qanını tökmüş, müsəlmanlara zülm etmiş Ermənistanla qucaqlaşır. Məscidlərimizi təhqir edib donuz fermasına çevirən Ermənistana pulsuz silah verir, yardımlar edir. Dünyanın 13 dövləti Xocalı soyqırımını tanıdığı halda İran nəinki bu addımı atdı, hətta əsgərləri ermənilərlə birləşib azərbaycanlıların qanını tökdü. Dindən yalnız çirkin niyyətini həyata keçirmək üçün istifadə edən İran din qardaşlarının qanını tökən Ermənistanla qardaşlıq edir.

Aylardır İranda kütləvi etirazlar baş verir. İnsanlar küçələrə çıxıb sosial şüarlar səsləndirirlər, öz haqları uğrunda rejimə dirəniş göstərirlər. Etirazçılar bəzən küçələrə Azərbaycan bayrağı ilə çıxır, müzəffər Ali Baş Komandanın portretlərini qaldırırlar. Təbii ki, bu da sonu yaxınlaşmaqda olan molla rejimini daha da qəzəbləndirir, xalqımıza olan kinini bir qədər də artırır. Dövlətimizə qarşı kininin, nifrətinin əsl səbəbini Azərbaycan Respublikasının İsraildə səfirlik açması bəhanəsi ilə gizlətməyə çalışır. Hər an dövlətimizi təhdid etməkdən, bütün gücü ilə Azərbaycana qarşı iyrənc kampaniya aparmaqdan çəkinmir. İran mətbuatı, İran televiziyalarının gününü Azərbaycanı aşağılamaqla başlayıb, təhdid etməklə başa vurur. Dəfələrlə İran rəsmiləri, SEPAH generalları açıq şəkildə ölkəmizi təhdid edərək Azərbaycanın İsraildə səfirlik açmasına imkan verməyəcəklərini, Azərbaycan əgər bu işdə ortalığa konkret mövqe qoyarsa, sərt tədbir görəcəklərini xəbərdarlıq şəklində bildirmişdilər. Səfirlikdə terror hadisəsinin baş tutması, Azərbaycanın İsraildə səfirlik açması ilə eyni vaxta düşməsi təsadüfi hadisə ola bilməz. Bu, İran dövlətinin, İran xüsusi xidmət orqanlarının Azərbaycana qarşı indiyə kimi apardığı siyasətin nəticəsidir. Terror aktının İranın xüsusi xidmət orqanları tərəfindən hazırlanıb həyata keçirilməsi və İran dövləti tərəfindən birmənalı olaraq ört-basdır edilməsi faktı ortalıqdadır. Səfirlikdə törədilmiş qanlı cinayət İran dövlətinin Azərbaycana münasibətinin əyani sübutudur. Bunu hələ də anlamayıb, İranı dinin "müdafiəçisi", "hamisi", "islamın vəkili" hesab edənlər varsa, onlar ya İranın agentura şəbəkəsinin üzvləri, ya da müstəqilliyimizi, uğurumuzu gözü götürməyənlər, Azərbaycana qarşı açıq və gizli düşmənçilik edənlərə satılmışlardır. Bunun başqa adı yoxdur.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

Ekoaksiya 55 gündür davam edir

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası 55 gündür davam edir.

AZƏRTAC xəbər verir ki, havanın qarlı olmasına baxmayaraq, hazırda aksiya iştirakçılarının Laçın-Xankəndi yolunda fəallığı müşahidə olunur. İştirakçılar səhər saatlarında Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Qeyd edək ki, aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan oyaqdır, sərvətlərə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirirlər.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

Sülhməramlıların avtomobillərinin aksiya ərazisindən keçidinə şərait yaradılıb

Rusiya sülhməramlılarına məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidə maneəsiz hərəkət edirlər.

AZƏRTAC xəbər verir ki, Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən Rusiya sülhməramlılarına məxsus üç təminat avtomobilinin aksiya ərazisindən maneəsiz keçidinə şərait yaradılıb. Həmçinin sülhməramlıların 15 təminat-təchizat və üç minik avtomobili də Laçına maneəsiz keçid edib.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Terrorçu ölkə olan İranın riyakarlığı

İranda Məhsa Əmininin ölümü ilə başlayan aksiya bir müddət sonra genişlənərək həm də rejimə qarşı xalq etirazına çevrildi. Beləliklə, ötən ilin sentyabrından başlayan və xalq azadlıq hərəkatına çevrilən mitinqlər 6 aya yaxındır ki, davam edir.

Mitinqlərdə 500 nəfərə yaxın insan öldürülüb

Aksiya müddətində xalqı etirazlara səsləyənlərə, iştirakçılara kömək edənlərə qarşı polis tərəfindən xəsarət yetirilir, günahsız insanlar saxlanılır, həbs olunurlar. Həmçinin onlar barəsində ölüm hökmü çıxarılır, edama məhkum edilirlər.

Dəhşətlidir ki, saxlanılanların ailə üzvləri, hətta vəkilləri ilə görüşmələrinə icazə də verilmir, onların vəziyyəti haqqında məlumatlar gizlədilir. Ümumilikdə aksiya nəticəsində öldürülənlərin və saxlanılanların dəqiq sayı hakimiyyət orqanları tərəfindən açıqlanmır. Bu, bir daha molla rejiminin necə qəddar olduğunu, insan haqlarını kobud şəkildə pozduğunu sübut edir.

İran İnsan Haqları Təşkilatının məlumatına görə, indiyədək aksiyalarda təhlükəsizlik qüvvələri tərəfindən 490-dan çox adam öldürülüb. Ən azı 107 etirazçı isə hazırda edam cəzası ilə üz-üzədir.

Təkcə bu ilin yanvar ayında 55-dən çox şəxsin edam edildiyi bildirilir. Təşkilat ölüm hökmünün, terrorların əsas məqsədinin cəmiyyətdə qorxu yaratmaq olduğunu vurğulayaraq islam respublikası tərəfindən həyata keçirilən hər bir edamın siyasi xarakterli olduğunu bəyan edir.

Ermənistana arxa duran İran

Xalqı qorxu içində saxlamaq, terroru dəstəkləmək İranın yalnız

daxili deyil, həm də xarici siyasətidir. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə, ərazilərimizi dağıtmasına, dini abidələrimizi təhqir etməsinə bir dəfə olsun belə səsini çıxartmadı. Din adı altında gizlənərək terrorçu dövləti dəstəklədi, ərazisindən hərbi məqsədlər üçün silah-sursatın daşınmasına şərait yaratdı.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən narahat olan İran Ermənistanın təhlükəsizliyini öz təhlükəsizliyi elan edərək terrorçu dövlətə arxa dayaq oldu.

Maraqlıdır ki, İranı qorxuya salan nə idi? Azərbaycanı özünə niyə təhdid olaraq görürdü? Axı Azərbaycan İranla daim mehriban qonşuluq münasibətlərinin saxlanması üçün addımlar atıb. Bu cür münasibətin qarşılığını isə heç bir zaman görməyib.

Son olaraq İrandakı Azərbaycan səfirliyinə edilən silahlı hücum, ölkənin mühafizə xidmətinin heç bir tədbir görməməsi, eyni zamanda terror aktından bir həftədən çox keçməsinə baxmayaraq, hələ də hadisə ilə bağlı lazımi addımların atılmaması bu ölkənin Azərbaycana qarşı düşmənçilik mövqeyində durduğunu bir daha göstərdi.

İranın molla rejimi Xoydakı azərbaycanlılara yardım təkliflərindən imtina edir

İranda baş verən zəlzələdən sonra Xoyda azərbaycanlılara qarşı edilən ayrı-seçkilik də bu ölkənin soydaşlarımıza qarşı hansı münasibətdə olduğunun, yeritdiyi riyakar siyasətin göstəricisidir. Ötən ay baş verən zəlzələlərdən sonra dağıntıdan əziyyət çəkən əhalinin vəziyyəti acınacaqlı olaraq qalır. Yerli sakinlər çadır çatışmazlığının olduğunu, havaların soyuq və qarlı keçməsinin vəziyyəti daha da çətinləşdirdiyini deyirlər. Azərbaycan zəlzələdən zərərçəkən soydaşlarımıza humanitar yardım göndərmək istəsə də, molla rejimi buna icazə vermir. Deməli, bu ölkədə yaşayan soydaşlarımıza qarşı da mənəvi terror törədir.

Xatırladaq ki, zəlzələlər nəticəsində mindən artıq insan yaralanıb, 3 nəfər ölüb. Azərbaycanın yardımına imkan verməyən İran özü də soydaşlarımıza heç bir yardım göstərmir. Türkiyənin Qızıl Ay Cəmiyyətinin məlumatına görə, İran bu ölkənin yardım təklifindən də imtina edib. Yardımlardan imtina edən və özü də heç bir tədbir görməyən İran Xoyda zəlzələdən əziyyət çəkənlərin problemlərinin mediada işıqlandırılmasına imkan vermir.

İran bununla bir daha insan haqlarını necə kobud şəkildə pozduğunu, din adı altında pərdələnərək islami dəyərlərə qarşı çıxdığını, Azərbaycana qarşı riyakar, çirkin siyasət yeritdiyini nümayiş etdirir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

"Aqrarkredit" QSC fermerlərin dövlət vəsaitləri hesabına kreditləşməsində aktiv iştirakına görə mükafatlandırılıb

Bakıda Kənd Təsərrüfatı Nazirliyi yanında fəaliyyət göstərən Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) təşkilatçılığı ilə 2-ci Aqrobiznesin İnkişafı Forumu keçirilib.

Tədbirdə Kənd Təsərrüfatı və İqtisadiyyat Nazirliklərinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Mərkəzi Bankın, "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin ("Aqrarkredit" QSC) rəhbər şəxsləri, hər iki nazirliyin tabeli qurumlarının, Azərbaycan Banklar Assosiasiyasının, ölkədə fəaliyyət göstərən bankların, həmçinin yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Artıq ikinci ildir təşkil edilən forumun keçirilməsində əsas məqsəd ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud vəziyyəti və imkanları, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün atılmalı olan addımları müzakirə etməkdir.

Forumda dövlət dəstəyinin kənd təsərrüfatında təmin edilməsi, kiçik və orta fermerlərin istehsal vasitələri ilə təmin olunması, fermerlərin dövlət vəsaiti hesabına kreditləşməsi və aqrar maliyyələşmə sahəsində yeni innovativ məhsulların təqdim edilməsində iştirak edən özəl sektor subyektlərinə mükafatlar təqdim olunub. "Aqrarkredit" QSC "Fermerlərin dövlət vəsaitləri hesabına kreditləşməsində ən aktiv iştirak edən Bank olmayan kredit təşkilatı" nominasiyası üzrə mükafata layiq görülmüşdür. Mükafatı "Aqrarkredit" QSC-nin Kreditləşmənin təşkili və idarəolunması departamentinin direktoru Vüqar Yaqubova Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev təqdim etmişdir.

Qeyd edək ki, Aqrarkredit QSC bundan sonra da fəaliyyətində kənd yerlərində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının yaxşılaşdırılması üçün dövlətin apardığı siyasəti dəstəkləyəcək, onlara maliyyə xidmətləri ilə yanaşı, biznеslərinin idarə edilməsində maliyyə məsləhəti xidmətləri göstərəcək, habelə kənd yerlərində yaşayan insanların maliyyə savadlığının artırılmasına köməyini əsirgəməyəcək.

Ötən il vəba xəstəliyi 30-dan çox ölkədə qeydə alınıb

Dünya ölkələrinin COVID-19-la mübarizəsi fonunda vəba xəstəliyi də bəzi bölgələrdə yayılmağa və can almağa davam edir. Qlobal səhiyyə qurumlarının və hökumətlərin tədbirləri nəticəsində illərdir azalan vəba iqlim dəyişikliyi, yoxsulluq və münaqişələr kimi səbəblərlə yenidən yayılmağa başlayıb.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, 2017-ci ildən 2021-ci ilə qədər dünyada vəba ilə yoluxma qeydə alınan ölkələrin sayı 20-dən az olduğu halda, yalnız 2022-ci ildə vəba epidemiyası 30 ölkədə müşahidə olunub.

VII vəba pandemiyası davam edir

Vəba "Vibrio cholerae" (Vəba vibronu) adlı bakteriyanın səbəb olduğu nazik bağırsağın infeksion xəstəliyidir. Bu xəstəlik üçün qusma, ishal, orqanizmin kəskin susuzlaşması və nazik bağırsağın zədələnməsi xarakterik cəhətlərdir. Vəba xəstəliyində ölüm halları yüksəkdir.

Xəstəliyin ölümcül olmasına səbəb vəba vibrononun nazik bağırsaqda ifraz etdiyi CTX adlanan güclü zəhərdir. CTX normal natrium və xlorid axınına qarışaraq bağırsağın divarlarına yapışır. Bu zaman bədən bol miqdarda su ifraz edir ki, bu da öz növbəsində ishala, sürətli maye və duz itkisinə səbəb olur. Qəflətən başlayan bu simptomlar 12 saatdan 5 günə qədər müddətdə özünü göstərir.

Ağır vəbalı şəxslərdə kəskin ishal müşahidə edilir ki, onların bədənlərində sağ qalmağa kifayət edəcək qədər su və duz qalmır. Vəbadan ölən şəxslər böyük miqdarda maye itirdiklərinə görə dəriləri mavi-boz rəngə çalır, bu səbəbdən xəstəliyə "mavi ölüm" də deyilir. Müasir dövrdə vəba asanlıqla müalicə oluna bilən xəstəlik hesab edilir.

Bu xəstəliyə 1817-ci ildə Hindistanda rast gəlinib. Yoluxuculuq qabiliyyəti və ölüm sayına görə vəba tezliklə pandemiya elan edilib. Tarixdə indiyədək 7 vəba pandemiyası olub. ÜST tərəfindən 2022-ci ilin mart ayında bildirilib ki, 1961-ci ildə başlayan 7-ci pandemiya hələ də davam edir.

Yoluxmanın əsas səbəbi çirkli sulardır

Son illər vəba sözünü yenə tez-tez eşidirik. Əsasən inkişaf etməmiş ölkələrdə müşahidə edilən xəstəliyin yayılma səbəbi sanitar qovşaqların olmaması, əhalinin su təchizatı ilə mərkəzləşmiş qaydada təmin edilməməsi, çirkli su hövzələrindən içməli su kimi istifadə olunması və yaxud həmin sularda yuyunma, o suların məişətdə gündəlik istifadəsidir.

Malavi, Hindistan, Haiti, Livan, Keniya, Nigeriya, Banqladeş, İranın Kirmanşah, Kürdüstan əyalətləri, İraqın Ərbil, Süleymaniyyə və Kərkük şəhərləri vəba epidemiyasının aktivləşdiyi ərazilərdir.

Afrikanın cənub-şərqində yerləşən Malavidə vəba epidemiyası nəticəsində ölənlərin sayı sürətlə artır. Malavi Səhiyyə Nazirliyinin məlumatına görə, 20 milyon əhalisi olan ölkədə ümumi yoluxma sayı 30 min, həyatını itirənlərin sayı isə 1000 nəfərdən artıqdır. Vəbadan ən çox əziyyət çəkən ölkələrdən biri olan Haitidə yüzlərlə insan ölüb, xüsusən də ölkənin paytaxtı Port-o-Prensdə 10 minə yaxın yoluxma qeydə alınıb.

Azərbaycanda vəbaya yoluxma qeydə alınmayıb

Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aişə Kərimova deyir ki, ölkəmizdə uzun müddətdir ki, bu xəstəliyə yoluxan yoxdur: "Səbəbi isə içməli su hövzələrinin, mərkəzləşmiş su sistemlərinin ərazi üzrə fəaliyyət göstərən gigiyena-epidemiologiya mərkəzləri tərəfindən daimi nəzarətidir. Günlük, həftəlik və aylıq planlara əsasən, su nümunələrinin götürələrək işlənməsi prosesi uzun illərdir davam edir".

A.Kərimova qeyd edir ki, vəbaya yoluxma fekal-oral yolla baş verir: "İnsanlar vəbaya, əsasən, su vasitəsilə yoluxurlar. Digər xəstəliklərdə də olduğu kimi, burada da yaşlılar, uşaqlar, hamilələr, bədən çəkisi az olanlar və az maye qəbul edənlər daha tez yoluxurlar. Qorunmaq üçün sanitar-gigiyena qaydalarına riayət etmək, immunitetin zəifləməsinə yol verməmək tövsiyə olunur".

İnfeksionist onu da xüsusilə vurğulayır ki, bu xəstəliyi turistlərdə görmək ehtimalımız daha yüksəkdir: "Vətəndaşlara epidemik-endomik zonalara səfər etməmişdən öncə həmin bölgənin hansı xəstəliklərə görə endomik olduğunu araşdırmaq, ona uyğun davranmaq tövsiyə olunur. Məsələn, Hindistan kimi sanitar səviyyəsi çox aşağı olan ölkələrə səfər edərkən hətta marketdən alınan suyun belə qaynadılması mütləqdir. Səfərdən döndükdən sonra ciddi ishal şikayətləri ilə rastlaşanlar dərhal mütəxəssisə müraciət etməlidirlər. Bakteriya daşıyıcısı olan insan təmas zamanı digər şəxslərə də yoluxdura bilər".

"Ölkəmizdə uzun illərdir yoluxma olmamasına baxmayaraq, sanitar-epidemioloji nəzarət sisteminə əsasən, müəyyən mərkəzlərdə vəba otaqları yaradılaraq xüsusi təchizatla təmin olunub. Səhiyyə qurumları tərəfindən tibb personalına vaxtaşırı olaraq vəbayla bağlı təlimlər keçirilir", - deyə həkim-infeksionist bildirib.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

OXUCULARIN NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*
abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -124,80 (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
6 aylıq - 62,40 (altmış iki manat qırx qəpik) **manat**
3 aylıq - 31,20 (otuz bir manat iyirmi qəpik) **manat**

Hörmətli oxucular!
Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz,
(012) 539-59-33 *nömrəli telefona zəng vura bilərsiniz.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
struktur idarələrə yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə
müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132

Tender komissiyası

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
struktur idarələri və gəmiləri üçün mismar, bolt, qayka, sancaq, şrupların satın alınması məqsədilə
müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 10 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047

Tender komissiyası

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
gəmiləri üçün dəniz naviqasiya xəritələrinin satın alınması məqsədilə
müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 9 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047

Tender komissiyası

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
strukturlara tələb olunan diktlərin satın alınması məqsədilə
müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263

Tender komissiyası

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Bakı Mühəndislik Universitetinin rektoru professor Havar Məmmədova qaynı

FƏRAHİM MƏMİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

NƏBİ MÜƏLLİMİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevə atası

NƏBİ NƏBİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Mühəndislik Universitetinin kollektivi universitetin rektoru professor Havar Məmmədova qaynı

FƏRAHİM MƏMİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 434-63-30, 539-72-39	Humanitar siyasət şöbəsi	- 538-56-60
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Fotoillüstrasiya şöbəsi	- 538-84-73,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Kompüter mərkəzi	- 538-20-87,
İqtisadiyyat şöbəsi	- 538-42-32, 538-35-55,	Mühasibatlıq	- 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5026
Sifariş 253
Qiyməti 40 qəpik